Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

27
DEKABR
2019-cu il
№ 232 (4130)
Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır
Qəzet
2003-cü ildən
nəşr olunur

# ERMƏNİSTAN GÜRCÜSTANIN «SAKİT İŞĞALINA» BAŞLAYIB - TÜRKİYƏDƏN AZƏRBAYCANADƏK SƏRHƏDİ AZI 400 METR İÇƏRİ GİRİBLƏR, BAŞ NAZİR AÇIQ BƏYANAT VERDİ...

■ səh. 8 ■



■ səh. 5 ■

## Türkiyə-Naxçıvan sərhədində anti-İŞİD əməliyyatı və işdə erməni lobbi izləri...

İdmanın kütləviləşdirilməsində bütün potensiallardan istifadə olunurmu - Prezident hər kəsin borcunu xatırlatdı
■ səh. 11 ■

Radikallar Oqtay Gülalıyevi həyata qaytardığı üçün Heydər Əliyev Fonduna təşəkkür etməlidirmi...
■ səh. 3 ■

Deputatlar parlament buraxılandan sonra öz dairə seçicilərinə atdıqları addıma görə də heç bir izah vermədilər...
■ səh. 5 ■

Paşinyanın daha bir anti-Rusiya jesti - 99-cu il güllələbaranında Rusiya barmağının axtarışları genişlənir
■ səh. 6 ■

Sosial-demokrat qadının Xətai Bələdiyyəsində 22 min səs toplaması doğrudurmu - heç deputatlar bu qədər səs toplaya bilməyib...
■ səh. 4 ■

Liviyada Rusiya və Türkiyənin hərbi üz-üzə gəlmək təhlükəsi var
■ səh. 6 ■

Fransada Azərbaycan elm diasporu nə deməkdir...
■ səh. 3 ■

46 saylı məktəbin direktoru Sevinc Budaqova İsrail dövlətinin ordeni ilə təltif edildi
■ səh. 12 ■



«Qarabağ məsələsində status-kvo pozulanda bizim diplomatik, hüquqi, siyasi mövqeyimiz çox zəif olacaq» - Ermənistan yeni şokda...
■ səh. 9 ■

Paşinyanın yaxın silahdaşı şəxsən Putinə qarşı açıq dövləti cinayət ittihamlarına başladı
■ səh. 7 ■



Sosial evlərin məsələsini dolaşdıran dələduz hakerlər qrupu - yüzlərlə mənzilin real vətəndaşlara çatmadığı iddiası var
■ səh. 14 ■

■ səh. 2 ■
Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya köməkçi təyin edildi - Andrey Sipilin...



■ səh. 10 ■
Ermənilərin Qars müqaviləsini 100 illik müddətə bağlamaq səyləri - Azərbaycan yenə ifşa edir



■ səh. 4 ■
Bələdiyyə seçkilərində müxalifətin məğlubiyyətinin səbəbləri...



■ səh. 11 ■
Qadınlar Azərbaycanın seçkili hakimiyyət orqanlarını sürətlə ələ keçirir...



■ səh. 14 ■
Bakı restoranlarında 2 nəfərlik Yeni il süfrəsi 80, hətta 450 manata, necədir...



### Prezident İlham Əliyev "Rossiya-24" telekanalına müsahibə verdi

**Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiyasının "Rossiya-24" televiziya kanalına müsahibə verib.**

Dövlət başçısı müsahibədə Azərbaycan-Rusiya ikitərəfli münasibətləri və digər məsələlərlə bağlı sualları cavablandırıb.

### Prezident İlham Əliyev Bakı-Quba-Rusiya ilə dövlət sərhədi yeni avtomobil yolunun tikintisi ilə tanış olub

**Prezident İlham Əliyev dekabrın 26-da Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun tikintisi ilə tanış olub.**

Dövlət başçısına yeni avtomobil yolunun tikintisi çərçivəsində görülən işlərlə bağlı məlumat verilib.

### Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya köməkçi təyin edildi - Andrey Sipilin...



**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya köməkçi təyin edilib. "Trend"in məlumatına görə, bununla bağlı müvafiq sərəncam imzalanıb.**

Sərəncama əsasən, Andrey Sipilin Birinci vitse-prezident Mehriban Əliyevanın köməkçisi təyin olunub.

### Tütün, spirtli və enerji içkilərinin aksiz vergisi artırıldı

**"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Qanunun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2019-cu il tarixli Fərmanına uyğun olaraq, ölkədə istehsal olunan spirtli içkilər, tütün məmulatları, eləcə də enerji içkilərinə aksiz vergisi dərəcələri dəyişdirilib.**

"Trend"in məlumatına görə, aksiz dərəcəsi araq, tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, likyor və likyor məmulatlarının hər litri üçün 2 manatdan 3,2 manata, şampan şərabının hər litri üçün 2,5 manatdan 2,6 manata, şərablar və şərab materiallarının hər litri üçün 0,1 manatdan 0,2 manata, pivə və pivə tərkibli digər içkilərin hər litri üçün 0,2 manat manatdan 0,4 manata artırılıb.

Digər yüngül spirtli içkilər üzrə aksiz dərəcəsi bir litr üçün 0,4 manat məbləğində müəyyən edilib. Konyak və konyak məhsullarının hər litri üçün tətbiq edilən 6 manat aksiz dərəcəsi isə 3,2 manata endirilib.

Tütün məmulatları üzrə aksiz dərəcəsi hər min siqaret, siqarilla və tütün əvəzedici üçün 21 manatdan 31 manata qaldırılıb.

Enerji içkiləri üzrə aksiz dərəcəsi hər litri üçün 3 manatdan 3,1 manata qaldırılıb.

# Prezident İlham Əliyev Türkiyədə Azərbaycan sərmayəsi üçün hədəf rəqəmi göstərdi

**Türkiyə-Azərbaycan əlaqələri xüsusi önəm daşıyır və bu əlaqələr bu gün ən yüksək zirvədədir. "Trend"in məlumatına görə, bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 26-da Türkiyə Respublikasının Ticarət naziri xanım Ruhsar Pekcanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən deyib.**



Dövlət başçısı bildirib ki, "əlbəttə, bu il də çox önəmli hadisələr birgə qeyd olundu. Onlardan biri də TANAP-ın Avropa sərhədinə çatdırılması layihəsidir. Biz TANAP-ın Türkiyə bazarına çatdırılmasını keçən il qeyd etmişdik. Bu il noyabrın sonunda isə TANAP artıq Avropa sərhədinə çatdırıldı və bu tarixi hadisəni birlikdə qeyd etdik. Əminəm ki, gələn il Cənub Qaz Dəhlizi tam istismara veriləcək və beləliklə, bizim birgə həyata keçirdiyimiz bu nəhəng layihə artıq başa çatacaq.

Qarşılıqlı sərmayə qoyuluşu məsələlərində də çox gözəl nəticələr var. Azərbaycan bu günə qədər Türkiyəyə 17 milyard dollardan çox, Türkiyə isə Azərbaycana 12 milyard dollardan artıq sərmayə qoyub. Qeyd etdiyiniz kimi, SOCAR-ın yeni planları, yeni sərmayə qoyuluşu layihələri var. Onlar da həyata keçdikcə bizim Türkiyəyə yatırdığımız sərmayənin həcmi 20 milyard dollara çatacaq. Bu, bir daha bizim qardaşlığımızı göstərir. Çünki ancaq bir-birinə sıx bağlı olan ölkələr bir-birinin iqtisadiyyatına bu qədər yatırım qoya bilərlər.

Biz çox şadıq ki, Azərbaycanda yüzlərlə Türkiyə şirkəti fəaliyyət göstərir. Onlar bizim üçün çox önəmli layihələrdə - xüsusilə texnoloji baxımdan tutumlu, inşaat və sənaye layihələrində iştirak edirlər. Bakıda bir çox müasir binanın inşaatında, dizaynında və memarlığında Türkiyə şirkətlərinin izi vardır. Burada xarici şirkətlər arasında dövlət xətti ilə gerçəkləşən layihələrdə Türkiyə şirkətləri böyük üstünlük təşkil edir. Bu da təbiidir. Çünki biz hər bir sahədə bir-birimizi dəstəkləyirik, həm siyasi sahədə, həm də iqtisadi və ticarət sahələrində. Qarşılıqlı ticarət dövriyyəsi də artır. Artıq hazır olan preferensianal ticarət anlaşması da imzalanandan sonra ticarət dövriyyəsi daha da artacaq".

# AMEA-da islahatlarla paralel ixtisarlar başladı...

**Azərbaycan Milli Elmlər Akademiyasının 2020-2025-ci illər üçün inkişaf strategiyası hazırlanıb. Bunu "Trend"ə Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli deyib.**

Onun sözlərinə görə, AMEA-da islahatların həyata keçirilməsi, bir sıra yeniliklərin tətbiqi üçün yaxın dövr - 2020-2025-ci illər üçün inkişaf strategiyasının hazırlanması lazım idi:

"Artıq bir aydan çox idi ki, akademik R.Mehdiyevin rəhbərliyi altında işçi qrup AMEA-nın 2020-2025-ci illər üçün inkişaf strategiyasının hazırlanması üzərində iş aparıb. Artıq bu iş tamamlanıb. Yaxın 5 il üçün inkişaf strategiyası ümumi yığıncaqda müzakirə edilib. Bu, əslində akademiyada yeni islahatlar mərhələsinin başlaması deməkdir. Həmin strategiya müzakirə olunub qəbul edildikdən sonra yeni islahatlar dalğasına start veriləcək".

İsa Həbibbəyli deyib ki, AMEA prezidenti, akademik Ramiz Mehdiyev bu qurumda islahatların həyata keçirilməsi istiqamətində iş aparır. Bununla əlaqədar akademiyanın müxtəlif sahələrində bir sıra yeniliklərin tətbiqi nəzərdə tutulur.

Onun sözlərinə görə, Azərbaycan Milli Elmlər Akademiyasında islahatlarla bağlı bəzi şişirdilmiş məlumatlar yayılır.

Vitse-prezident əlavə edib ki, AMEA-da kütləvi ixtisarların aparılması nəzərdə tutulmur: "Harada paralel qurumlar, artıq, şişirdilmiş ştatlar varsa, onların aradan qaldırılması nəzərdə tutulur. Akademiyada ixtisarların olacağı barədə ajiotaj yaratmağa dəyməz. Sadəcə olaraq, AMEA-da təkmilləşdirmə işləri aparılacaq".



mi müəssisələrin birləşdirilməsi ilə bağlı heç bir məsələ müzakirə olunmayacaq: "Bu yığıncaq akademiyanın Rəyasət Heyətinin təşkilati strukturunda islahatların aparılması ilə bağlı problemləri həll edəcək. Bu yığıncaqda əslində yeni tipli Rəyasət Heyətinin formalaşdırılması və onun işinin stimullaşdırılması istiqamətində qərarlar qəbul ediləcək. Bu isə akademiyanın tarixində yeni bir mərhələnin başlaması deməkdir".

İ.Həbibbəyli deyib ki, Azərbaycan Milli Elmlər Akademiyasında bölmələrin akademik katib ştatlarının ləğv edilməsi, Birinci vitse-prezident institutunun formalaşdırılması nəzərdə tutulur. Bu məsələ AMEA-nın dekabrın 28-də keçiriləcək ümumi yığıncağında müzakirəyə çıxarılacaq.

Onun sözlərinə görə, islahatların aparılması üçün AMEA-nın nizamnaməsində müəyyən dəyişikliklərin edilməsi zərurəti yaranmışdı. Bununla əlaqədar artıq AMEA-nın nizamnaməsində uyğun dəyişikliklər edilib.

Vitse-prezident qeyd edib ki, AMEA-nın yeniləşmiş nizamnaməsi dekabrın 28-də keçiriləcək Ümumi yığıncağında müzakirəyə çıxarılacaq. Yeni nizamnaməyə əsasən, ləğv edilən akademik katiblərin kuratorluq etdiyi sahələrə AMEA-nın həmin sahələrə cavabdeh olan vitse-prezidentlərin rəhbərlik etməsi nəzərdə tutulur. İndiyədək bölmələrə kuratorluq edən vitse-prezident indi həmin bölmənin sədri funksiyasını yerinə yetirəcək və həmin sədrin də köməkçisi olacaq:

"Bunlar paralel qurumlardır. Başqa ölkələrdə də buna uyğun islahatlar aparılır. AMEA-da bu paralel qurumları aradan qaldırmağı nəzərdə tutur. Bütün bunlar AMEA-da optimallaşdırmanın və ixtisarların aparılması ilə bağlı bir çox məsələləri həll etməyə kömək edəcək. Həmin ştatlar ləğv edildikdə onlara bağlı köməkçi qurumların da ixtisarı aparıla bilər. Hazırda bu istiqamətdə iş aparılır".

İ.Həbibbəyli qeyd edib ki, vitse-prezidentlərin köməkçisinin akademik olması zəruri deyil. Həmin köməkçi vəzifələri seçkili deyil, təyinat vəzifələri olacaq.

Xatırladaq ki, dekabrın 28-də AMEA Rəyasət Heyətində akademiyanın ümumi yığıncağı keçiriləcək.

# Radikallar Oqtay Gülalıyevi həyata qaytardığı üçün Heydər Əliyev Fonduna təşəkkür etməlidirmi...

**Məlum olduğu kimi, tanınmış hüquq müdafiəçisi Oqtay Gülalıyev oktyabrın 29-da taksi fəaliyyəti ilə məşğul olan sürücü Kənan Abdullayevin idarə etdiyi "Hyundai Accent" markalı avtomobillə yolu keçən zaman vurulub. O.Gülalıyev qəzadan sonra onu vuran sürücü tərəfindən xəstəxanaya aparılıb.**



***Vüqar Rəhimzadə:** ”Gülalıyevin səhhəti yaxşılaşmağa doğru getdiyi üçün, radikallar Heydər Əliyev Fonduna təşəkkür etməyə borcludurlar”*

Sonra ailəsinin təkidilə oradan "City Hospital" xəstəxanasına aparılaraq əməliyyat olunub.

Komada olduğu üçün, ailəsinin istəyilə, Heydər Əliyev Fondunun yardımı əsasında müalicəsinin Türkiyədə davam etdirilməsinə qərar verilib. Heydər Əliyev Fondu hüquq müdafiəçisinin müalicəsini öz üzərinə götürüb. Heydər Əliyev Fondunun prezidenti, Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırığı ilə fond O.Gülalıyevin müalicəsi ilə bağlı məsələlərlə məşğul olur.

Qeyd edək ki, O.Gülalıyevin əməliyyat olunması ilə bağlı məlumatları tanınmış professor, həm də müxalif mövqeyi ilə tanınan Adil Qeybulla verirdi. Ancaq buna baxmayaraq, radikal müxalifət təmsilçiləri dərhal başladılar O.Gülalıyevin səhhəti ətrafında manipulyasiyalar etməyə. Guya vaxtında müdaxilə olunmayıb, nəzarətə götürülməyib və s. Ancaq A.Qeybulla bildirdi ki, ilk andan Səhiyyə Nazirliyi bu məsələ ilə maraqlanır. Çox tanınmış neyrocərrahlar gəlib onu yüksək səviyyədə əməliyyat etdilər. Əməliyyatdan sonra da, məlum olduğu kimi, Heydər Əliyev Fondunun dəstəyilə O.Gülalıyev xüsusi təyyarə ilə Türkiyəyə aparıldı. Hətta xəstəyə baxan Türkiyədə cərrahlar da qeyd etdilər ki, onun Azərbaycanda əməliyyatı yaxşı şəraitdə keçib. Ancaq bu müddətdə daim radikal mövqedən çıxış edən müxalifət təmsilçiləri O.Gülalıyev ətrafında müxtəlif spekulyasiyalar yaratmağa çalışdılar. Gah dedilər səhhətində irəliləyiş olmayacaq, gah dedilər Heydər Əliyev Fondu müalicəni yarımçıq qoymaq istəyir və s. Ancaq bütün bunların heç biri özünü doğrultmadı. Artıq hüquq müdafiəçisi O.Gülalıyevin səhhətində müsbətə doğru dəyişiklik var. Hüquq müdafiəçisinin xanımı Firuzə Gülalıyeva bildirib ki, bir həftədən çoxdur onun hərarəti yüksəlmir, böyrəklərində kreatinin səviyyəsi azalıb və daha rahat nəfəs alır: "Oqtay artıq sağ gözünü açır. Həkimlərin sözlərinə görə, komadan ayılma ehtimalı artır, amma buna hələ zaman lazımdır".

*”Bəlli olduğu kimi, onların xəbis niyyətləri reallaşmadı”*

Bütün bunlar bir daha sübut etdi ki, radikalların bu məsələ ilə bağlı manipulyasiya cəhdləri fiaskoya uğradı. Heydər Əliyev Fondu ictimai mövqeyindən asılı olmayaraq, öz vətəndaşının müalicəsinin arxasında sona qədər durdu.

Bütün bunlardan sonra radikallar O. Gülalıyevi həyata qaytardığı üçün Heydər Əliyev Fonduna təşəkkür etməlidirlərmi?

Məsələyə münasibət bildirən "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin sözlərinə görə, O.Gülalıyevin səhhəti yaxşılaşmağa doğru getdiyi üçün, radikallar Heydər Əliyev Fonduna təşəkkür etməyə borcludurlar: "Ona görə ki, onların ilk vaxtlar və ondan sonra səsləndirdikləri fikirlər tamamilə əsassız idi. Əsassız olmaqla yanaşı, böhtan xarakterli idi. Heydər Əliyev Fondu bu istiqamətdə üzərinə düşən bütün işləri gördü və indinin özündə də görür. Radikallar isə O.Gülalıyevin başına gələn məlum hadisədən siyasi alver məqsədilə istifadə etməyə çalışdılar. Xəstədən öz çirkin niyyətləri üçün istifadə etməyə cəhd etdilər. Müxtəlif vasitələrlə spekulyasiyalar edirdilər. Hansı ki, bu, insanlığa yaraşmayan bir hərəkətdir. Ancaq, bəlli olduğu kimi, onların xəbis niyyətləri reallaşmadı.

O.Gülalıyevin ailə üzvləri də etiraf edirlər ki, artıq onun səhhəti yaxşılaşmağa doğru gedir. Səhhətində müsbət dinamika var. Həkimlər prosesin zamana ehtiyacı olduğunu qeyd edirlər. Ona görə də radikallar buna görə fonda təşəkkür etməlidirlər. Özlərində cəsarət tapıb bunu etməlidirlər".

***Vidadi ORDAHALLI***

# Fransada Azərbaycan elm diasporu nə deməkdir...

**Xaricdə yaşayan Azərbaycan əsilli alimlər, elm xadimləri hər zaman tarixi vətənləri olan Azərbaycanı müxtəlif istiqamətlərdə təmsil və təbliğ ediblər. Xaricdəki Azərbaycan diasporunun formalaşmasında şübhəsiz ki, alimlərin, elm adamlarının xüsusi rolu olub, onlar bu istiqamətdə fəaliyyətlərini bu gün də davam etdirirlər.**



***İlqar Orucov:** ”Diaspor Komitəsilə birgə diaspor alimlərinin I Bakı Forumunun keçirilməsi ilə bağlı komitə ilə razılığa gəlmişik”*

Bu gün bir sıra Avropa ölkələrində Azərbaycan alimləri ölkəmizin tanıdılması yönündə müxtəlif işlər görürlər.

Mətbuatın yazdığına görə, Fransa Azərbaycan Dialoqu Assosiasiyasının təşkilatçılığı, Azərbaycan Diasporuna Dəstək Fondunun maliyyə dəstəyi və Azərbaycan Respublikasının Fransadakı Səfirliyinin dəstəyilə Paris şəhərində Azərbaycan Respublikasının Fransadakı Səfirliyinin Mədəniyyət Mərkəzində Fransadakı azərbaycanlı elmi diasporu yaradılıb.

Diasporla ilk görüş Azərbaycan Respublikasının Fransadakı Səfirliyinin Mədəniyyət Mərkəzində keçirilib. Görüşdə Fransanın bütün regionlarından gələn əlliyə yaxın azərbaycanlı elmlər namizədi (PhD) və doktorantlar, həmçinin, magistr tələbələri iştirak ediblər. Məlumatlara görə, Fransada elmi diasporun gələcək məqsədləri, vəzifələri, öhdəlikləri ətrafında fikir mübadiləsi aparılıb və Fransanın elm ocaqlarında elmi iş yazan və bu titulu artıq əldə etmiş həmvətənlərimizin bir araya gətirilməsi və təşkilatlanması üçün elmi diasporun yaradılması qərara alınıb.

Azərbaycan Respublikasının Fransadakı səfiri Rəhman Mustafayev görüşdə iştirak edən azərbaycanlı elmi işçilərini salamlayaraq, elmi diasporun yaradılmasının vacibliyini vurğulayıb və Fransa ali təhsil ocaqlarının kitabxanalarında Azərbaycanla bağlı kitab bazasının genişləndirilməsi üçün səfirliyin dəstək olacağını bildirib.

Görüş iştirakçılarına, eyni zamanda, Azərbaycan Milli Elmlər Akademiyasının science.az saytında elmi diaspora portalı və Fransadakı azərbaycanlı tələbə təşkilatları barədə məlumat verilib.

Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov "Bakı-Xəbər"ə bildirdi ki, belə bir diasporun yaradılması çox müsbət haldır. O bildirdi ki, bu məsələ ilə bağlı 1 ildir Disapor Komitəsinin rəhbərliyilə söhbətlər aparılıb. "Azərbaycanın xaricdə elmi diasporunun yaradılması önəmli bir hadisədir. Komitənin hazırkı rəhbəliyi və onun komandası xaricdəki Azərbaycan diasporu ilə bağlı problemlərin aradan qaldırılması, habelə bir sıra mütərəqqi işlərin həyata keçirilməsi üçün mühüm işlər görür. Bir il bundan əvvəl diaspor alimlərinin təşkilatlanması ilə bağlı Diaspor Komitəsi ilə görüşlərimiz oldu və belə bir təşkilatın yaradılmasına nail olduq. 2020-ci ilin aprel ayının sonu və mayın əvvəlində Azərbaycan diasporunun qurucusu və Azərbaycan dövlətinin memarı ulu öndərin doğum günü ərəfəsində ciddi bir hərəkatın formalaşdırılmasına nail olmaq niyyətindəyik. Bu, xüsusilə diaspor alimlərini bir araya gətirəcək xüsusi tədbirin Bakıda təşkil edilməsi ilə bağlıdır. Bu istiqamətdə artıq yeni təşəbbüslə çıxış etmişik. Bakıda Diaspor Komitəsilə birgə diaspor alimlərinin I Bakı Forumunun keçirilməsi ilə bağlı komitə ilə razılığa gəlmişik. Bu istiqamətdə artıq layihə üzərində çalışırıq. Biz hər zaman bu fikirdə olmuşuq ki, Azərbaycan xalqı intellektual xalqdır və bu xalqın elitar kəsimi olaraq xarici ölkələrdə formalaşan alimlərimizi bir araya gətirən, onları təşkilatlandıran bir elmi diasporun qurulması vacibdir. Bu insanların potensialından istifadə edilməsi çox lazımdır. Azərbaycan diasporu xarici ölkələrdə müxtəlif adlar altında fəaliyyət göstərir, amma bizim xaricdə olan diaspor alimlərimizin bir məqsəd uğrunda, bir platforma ətrafında birləşməsi ilk dəfədir. Bu ideya birinci dəfədir həyata keçir və buna komitənin ciddi dəstəyi var".

Ölkə başçısının bu istiqamətdə də siyasət yürütdüyünü deyən İ.Orucov hesab edir ki, bu siyasət xaricdəki azərbaycanlıların Azərbaycan dövlətçiliyi ətrafında sıx birləşməsinə yönəlib. Fransada yaradılan elmi diasporun oradakı alimlərin bir araya gələrək təşkilatlanması istiqamətində atılan ilk addım olduğunu deyən İ.Orucovun sözlərinə görə, alimlərin birləşdiyi bu yeni platforma böyük uğurlar vəd edir. "Fransada yaradılan elmi diasporun uğurlu fəaliyyətinin müsbət nəticəsini görəcəyik, bu, Azərbaycan xalqının intellektual, elitar kəsiminin vahid məqsəd ətrafında birləşməsi deməkdir" - deyə İ.Orucov qeyd etdi.

***İradə SARIYEVA***

**Məlum olduğu kimi, dekabrın 23-də Azərbaycanda bələdiyyə seçkiləri keçirilib. Sözügedən seçkilər sayca beşinci bələdiyyə seçkiləri oldu. Seçici hüququna malik ölkə vətəndaşları növbəti 5 il üçün yerli özünüidarəetmə orqanlarına üzv seçilmək istəyən namizədlərə etimad göstərdilər.**

*"...bələdiyyə seçkilərindən müxalifət məğlubiyyətlə çıxdı"*

# Bələdiyyə seçkilərində müxalifətin məğlubiyyətinin səbəbləri...

***Məhərrəm Zülfüqarlı:** "Hansısa partiyanın qələbəsi onun tərəfdarlarının və seçicilərin sayı ilə ölçülür"*

Seçki kampaniyasının başlanmasına start verildiyi gündən Seçki Məcəlləsinin tələblərinə və MSK-nın təsdiq etdiyi Təqvim Planına uyğun qaydada bələdiyyə üzvlüyünə namizədlərin irəli sürülməsi və qeydə alınması prosesi, seçkilərə hazırlıq mərhələsi, qeydə alınmış namizədlərin təbliğat-təşviqat kampaniyası uğurla reallaşdı. Səsvermə isə ölkə üzrə 7 seçki dairəsi (Ermənistan tərəfindən əraziləri işğal edilmiş rayonlar) istisna olmaqla, ümumilikdə, 118 seçki dairəsi üzrə 5049 seçki məntəqəsində keçirildi. Ölkə üzrə səsvermədə iştirak edəcək seçicilərin sayı 4 milyon 972 min 356 nəfər idi.

Onu da diqqətə çatdıraq ki, bələdiyyə seçkilərindən əvvəl və onun gedişində aqressiv müxalifət öz ənənəsinə sadiq qalaraq bu seçkiləri də gözdən salmaq, yerli idarəetmənin rolunu şübhə altına almaq istiqamətində uğursuz təbliğat aparmağa cəhdlər göstərdi. Lakin əhalinin seçkilərə göstərdiyi maraq və ictimai fəallıq onların cəmiyyətlə ayaqlaşa bilmədiklərini və xalqın arasında nüfuzlarını tam olaraq itirdiklərini bir daha sübut etdi. Seçkilərə 13 siyasi partiya qatıldı. Ancaq müxalifət partiyaları bələdiyyə seçkilərindən məğlubiyyətlə çıxdılar. Seçicilər müxalif partiyadan olan namizədlərə etimad göstərmədilər.

Bütün bunlarla yanaşı, maraqlıdır, müxalifətin bələdiyyə seçkilərindən məğlubiyyətlə çıxmasının səbəbləri nə ilə bağlıdır?

Sözügedən məsələyə aydınlıq gətirən Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) Seçki Qərargahının rəhbəri Məhərrəm Zülfüqarlı müxalifətin məğlubiyyətinin səbəbini bir sıra amillərlə əlaqələndirdi: "Bələdiyyə seçkilərindən müxalifətin məğlubiyyətlə çıxmasının başlıca səbəbi onların seçici elektoratının zəif olmasıdır. Məsələ ondadır



ki, bunların sosial bazası zəifdir. Seçkidə iştirak etmək üçün resursları, demək olar ki, minimumdur. Ona görə də digər seçkilərdə olduğu kimi, bələdiyyə seçkilərində də məğlubiyyətə uğradılar. Görünən odur ki, müxalifət partiyaları cəmiyyətdə dayaq tapa bilmirlər. Hansısa partiyanın qələbəsi onların tərəfdarlarının və seçicilərin sayı ilə ölçülür. Müxalifət partiyalarında o baza zəif olduğuna görə seçkilərdə məğlub olurlar. Bu səbəbdən son bələdiyyə seçkilərindən müxalifət məğlubiyyətlə çıxdı. Məğlubiyyətin bir səbəbi də müxalifət partiyalarının seçicilərlə işləməməsidir.

Müşahidələr göstərir ki, sözügedən partiyalar seçicilərlə işi qura bilmirlər. Seçkilərdə iştirak etmək, qələbə çalmaq üçün beynəlxalq təcrübə var. Yəni bunun üçün 3 resurs olmalıdır. Bunun üçün insan resursu, maddi resurs və vaxt resursu olmalıdır. Sözügedən resursu olmayan namizəd, siyasi partiya qələbə çala bilməz. Müxalifətin sözügedən resursları olmadığına görə seçkidə məğlub oldu".

***Vidadi ORDAHALLI***

**Bələdiyyə seçkilərində rəsmi bir nəticənin elan olunmasından sonra ortaya çıxan rəqəm sosial şəbəkələrdə böyük müzakirələrə səbəb olub. Xətai Bələdiyyəsinə keçirilən seçkilərdə Araz Əlizadənin rəhbəri olduğu ASDP-nin təmsilçisi kimi iştirak edən Abdullayeva Səbinə Hidayət qızının 22362 səs topladığı məlum olub.**

# Sosial-demokrat qadının Xətai Bələdiyyəsində 22 min səs toplaması doğrudurmu - heç deputatlar bu qədər səs toplaya bilməyib...



***Abil Bayramov:** "Elə kənd bələdiyyələri var ki, ora seçilmək üçün cəmi 1000 səs də kifayət edir"*

Sosial şəbəkələrdə gedən müzakirələrdə bu sayda səsin toplanmasına bir qədər şübhəli yanaşılır.

Aparılan müzakirələrdə bildirilir ki, bu qədər səsi heç millət vəkilləri toplaya bilmirlər. Cəmiyyətdə elə də populyar olmayan bir xanımın bu qədər səs toplaması doğrudan da maraqlı görünür. Həmin dairədən bələdiyyə üzvlüyünə namizəd olan digər alternativləri xanımın kütləvi səs toplamasına şübhəli yanaşırlar. Maraqlıdır, bələdiyyə üzvü seçilməsi üçün bu qədər səsin toplanması mümkündürmü? Ümumiyyətlə, bələdiyyə üzvü seçilmək üçün hansısa sayda səsin toplanması yetərli sayılır?

Biz ilkin olaraq məlum nəticəyə imza atmış S.Abdullayeva ilə bağlı bir araşdırma apardıq. MSK-nın məlumatlarında onun seçkiyə ASDP üzvü kimi qatıldığı qeyd edilir. S.Abdullayeva, eyni zamanda, aktiv sosial şəbəkə istifadəçisidir. Maraqlıdır ki, onun sosial şəbəkələrdə olan hesablarını analiz etdikdə həmin partiya ilə bağlılığını sübut edən hər hansı məlumata və ya paylaşıma rast gəlinmir. Səbinə xanımın özü ilə əlaqə saxlayıb, bu uğurunun sirləri ilə maraqlanmaq istəsək də, xanım suallarımıza cavab vermək istəmədi. Apardığımız araşdırma zamanı həm də məlum oldu ki, Səbinə xanım bundan əvvəl də Xətai Bələdiyyəsində təmsil olunub. Yəni bu onun həmin bələdiyyəyə təkrar seçilməsi anlamına gəlir.

Bələdiyyələr üzrə ekspert Abil Bayramov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu məsələyə bir neçə aspektdən yanaşmaq olar: "Birincisi budur ki, həmin adam deyilən sayda səsi toplamağa qadirdir və ya yox? Təbii ki, artıq bunu biz buradan mübahisələndirə bilmərik. Çünki seçkilər keçirilib və proseslərlə bağlı müşahidələr aparılıb. Hər hansı bir nöqsanın olması ilə bağlı MSK-ya müraciət olunmalıdır. Hər hansı namizəd MSK-nın da rəyi ilə razılaşmasa, məhkəməyə şikayət verə bilər. İkinci detal isə deyilən sayda səsin toplanmasının mümkün olub-olmadığı ilə bağlıdır. Bu məsələdə vətəndaşlarımızı çaşdırır. Elə kənd bələdiyyələri var ki, ora seçilmək üçün cəmi 1000 səs də kifayət edir. Sizin dediyiniz nəticə isə Bakının rayonlarından birində qeydə alınıb. Müqayisə üçün baxın, Nizami, Nəsimi rayonlarında da bənzər rəqəmlərlə qalibiyyətlər elan edilib.

Bakının rayonlarında bələdiyyələri çoxlu sayda əhali əhatə edir. Bir daha deyirəm, kiminsə o səsi toplayıb-toplaya bilməməsi ilə bağlı konkret nəsə demək olmaz. Ancaq Bakı rayonlarında deyilən sayda səsin toplanması seçici sayına tam uyğundur. Əgər siz ötən seçkilərdə məhz həmin ərazilərdə toplanan səsləri araşdırsanız, oxşar rəqəmlər ortaya çıxacaq. Burada seçici sayı ilə disbalans yoxdur".

***Məhəmmədəli QƏRİBLİ***

# Türkiyə-Naxçıvan sərhədində anti-İŞİD əməliyyatı və işdə erməni lobbi izləri...

**Türkiyə polisi İŞİD-ə üzv olmaqda şübhəli bilinən üç şəxsi Azərbaycanın Naxçıvan bölgəsi ilə sərhəddə yerləşən Dilucu sərhəd-keçid məntəqəsində yaxalayıb. Türkiyə mediasının verdiyi məlumata görə, terrorçuluqda şübhəli bilinən şəxslərin münaqişə zonasına keçməyə hazırlaşdıqları barədə daxil olmuş əməliyyat məlumatı əsasında Kocaeli antiterror polisi əməliyyat başladıb.**

Saxlanan şəxslərin kimliyi, hansı ölkənin vətəndaşları olması açıqlanmır.

Türkiyə İŞİD üzvlərinin Suriyaya keçməsi üçün əsas tranzit ölkədir, vaxtaşırı olaraq təhlükəsizlik qüvvələri terror qruplaşmasının üzvlərini həbs edirlər.

Bu hadisənin baş verməsi bir sıra maraqlı faktları və ehtimalları üzə çıxarmış olur. İŞİD-çi olduqları ehtimal edilən 3 şəxsin Naxçıvanla həmsərhəd ərazidə peyda olması bir çox sual ortaya çıxarır. Nəzərə alsaq ki, Naxçıvan bölgəsində İŞİD üzvləri yox dərəcəsindədir, eyni zamanda, onların fəaliyyəti üçün həmin regionda heç bir münbit şərait yoxdur, onda İŞİD-çilərin həmin sərhədə yaxın ətrafda dolaşması nə məqsədi güdə bilər? Qeyd edək ki, Naxçıvanın Türkiyə ilə olan sərhədi həm də Ermənistana yaxın olan ərazi sayılır. Türkiyənin həmin ərazilərində isə erməni diasporu ciddi fəaliyyət göstərir. Buna qəti şübhə yoxdur. Çünki Qars, Van bölgələrində ermənilərin keçirdikləri bəzi tədbirləri buna misal çəkə bilərik. Erməni lobbisinin dəstəyilə həmin coğrafiyada hətta Türkiyəyə ərazi iddialarının açıq səsləndiyi tədbirlər belə keçirilir. Bu yaxınlarda HDP-dən millət vəkili olan erməni əsilli deputat Karo Paylanın məhz həmin ərazilərdəki davranışlarını da buna misal göstərə bilərik.

Deməli, həmin ərazilərdən erməni lobbisinin hər hansı məqsədlər üçün istifadə edə biləcəyinə qəti şübhə yeri qalmır. İndisə gəlin bir müddət əvvəl Ermənistanın Baş naziri Paşinyanın verdiyi bir bəyanatın məzmununa diqqət edək. O, Dağlıq Qarabağ münaqişəsinin həll edilməyəcəyi təqdirdə Azərbaycanın hərbi güc tətbiq edəcəyi ilə bağlı səsləndirdiyi bəyanatlara belə şərh vermişdi ki, bu mövqe bölgənin təhlükəsizliyi üçün təhlükəlidir. Paşinyan fikrini belə izah etdi ki, guya münaqişə alovlanacağı təqdirdə dünyanın bir sıra ölkələrindən olan İŞİD və digər terrorçular üçün münbit şərait yaranacaq ki, bölgəyə gəlsinlər. Əslində, bununla Paşinyan beynəlxalq aləmi İŞİD kartı ilə şantaj edirdi. Bunun şantaj olduğunu, Paşinyanın qeyri-konstruktiv mövqeyinə haqq qazandırmaq cəhdi olduğunu hamı bilirdi.



Görünür, Ermənistan təbliğatı bölgənin artıq İŞİD üçün "cəlbediciliyi" rəyini praktik vasitələrlə sübuta yetirməyə çalışır. Böyük ehtimalla, həmin şəxslər də İŞİD qiyafəsinə girən və erməni lobbisinin maraqlarına xidmət edənlərdir. Məqsəd də bundan ibarətdir ki, Azərbaycan növbəti İŞİD kartı ilə şantaj edilsin. Əminik ki, qardaş Türkiyənin əlaqədar qurumları həbs edilənlərlə bağlı aparacaqları filtrasiya işlərində bu vacib detalı da nəzərdən keçirmiş olacaqlar.

***Məhəmmədəli QƏRİBLİ***

# Deputatlar parlament buraxılandan sonra öz dairə seçicilərinə atdıqları addıma görə də heç bir izah vermədilər...

**Növbədənkanar parlament seçkilərinin vaxtı yaxınlaşdıqca, maraqlı proseslərin şahidi oluruq. Parlamentin buraxılmasına səs vermiş millət vəkillərinin böyük əksəriyyəti yenidən deputat olmaq istəklərini ortaya qoyurlar. Artıq 30-a yaxın belə millət vəkili rəsmən yenidən namizəd olmaq istədiyi dairənin adını da açıqlayıb. Maraqlıdır ki, onların sırasında yaşı 80-ni keçənlər də var.**

***İsmayıl Ağayev:** "Seçicisi ilə hesablaşmayan deputat yaxşısı budur yenidən seçici qapısına gəlməsin"*

Təbii ki, parlamentin buraxılmasına səs vermiş millət vəkillərinin bu davranışları sosial şəbəkələrdə ciddi etirazla qarşılanır. Orada belə iradlar səslənir ki, parlament məhz onların fəaliyyəti qaneedici sayılmadığı səbəbindən buraxılıbsa və buna şəxsən özləri səs veriblərsə, yenidən deputat olmaq istəməyin nə adı ola bilər? Daha bir vacib irad parlamentin buraxılmasına səs vermiş müxalif və müstəqil millət vəkillərinin seçicilərə hörmətsiz yanaşmaları ilə bağlıdır. Hesab edilir ki, həmin deputatlar mütləq niyə parlamentin buraxılmasına və öz fəaliyyətlərinin dondurulmasına səs vermələrini seçicilərlə məsləhətləşməli və ən əsası isə atdıqları addımın izahını onlara verməlidilər. Belə addımın deputatlar tərəfindən atılması nəyin əlaməti sayıla bilər?

Ötən seçkilərdə millət vəkilliyinə namizəd olmuş, lakin deputat seçilə bilməyən Beynəlxalq Diaspor Mərkəzinin sədri İsmayıl Ağayev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu məsələdə seçicilərə hörmətsizlik əlamətləri var: "Mən ötən seçkilərdə namizəd olmuşam. Seçki prosesinin necə çətin iş olduğunu bilirəm. Seçicidən səs almaq üçün adam qapı-qapı gəzir, onlara müəyyən vədlər verir. Təbii ki, mən bunu həqiqi seçki kampaniyası aparanlara şamil edirəm. Sonda kim deputat seçilirsə, deməli, həmin seçicilərin səsi olaraq parlamentdə oturmaq hüququnu qazanır. Hətta ən xırda detalları belə həmin deputat gəlib seçicilərlə məsləhət etməlidir. Burada isə söhbət seçicilərin verdiyi səsin taleyindən gedir. YAP-ın deputatlarını başa düşdük, onlar partiyanın ümumi qərarına tabe olublar. Bəs digərləri? Onların arasında özünü müxalif, hətta müstəqil sayanlar var. Niyə bir millət vəkili seçiciləri yığıb atdığı addımın izahını vermədi? Bunu etmək onların həm də hüquqi borcuydu. Ən maraqlısı isə budur ki, bunların heç birini etməyənlər yenidən gəlib məhz həmin seçicilərin səsini təkrarən qazanmaq istəyirlər. Çox biabırçı bir mənzərədir. Onların özləri utanıb, bu marafondan çəkilməlidirlər.




Biz parlamentin cavanlaşmasının istəyirik, 80 yaşında deputatlar yenidən iddialarını ortaya qoyurlar. Parlamentin yaxşı işləmdəyini əsas götürürüksə, köhnələr yenə meydandadır. Hüquq insana müəyyən addımları atmağa imkana verə bilər, bəs mənəvi dəyərlər harada qaldı? Hesab edirəm ki, bu yolu seçən deputatlar üçün seçki təbliğatını aparmaq da asan olmayacaq. Elə ilk anda opponentləri bu iradları onlara tutacaqlar. Çox da ciddi, seçicinin rəyini dəyişə biləcək arqumentlərdir. Seçicisi ilə hesablaşmayan deputat yaxşısı budur yenidən seçici qapısına gəlməsin".

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyanın daha bir anti-Rusiya jesti - 99-cu il gülləbaranında Rusiya barmağının axtarışları genişlənir

## *Əhəd Məmmədli: "Sadəcə, ictimai rəydə Rusiyanı hörmətdən salmağa çalışır"*

**Ermənistan Baş Prokurorluğu 1999-cu ildə parlamentdə baş vermiş terror aktı ilə bağlı cinayət işinin istintaqını bərpa etməyə qərar verib. Erməni KİV-nin verdiyi məlumata görə, bu barədə prokurorluğun sözçüsü Arevik Xaçatryan bildirib.**



Onun sözlərinə görə, parlamentə hücumda öldürülən spiker müavini Yuri Baxşyanın arvadı Anait və onun nümayəndəsi terror aktı barədə ədalətli qərar qəbul edilməməsi barədə şikayət edib: "Şikayət Baş prokuror tərəfindən təmin edilib və iş davam etdirilməsi üçün istintaq orqanına göndərilib".

Xatırladaq ki, 1999-cu il oktyabrın 27-də Nairi Hunanyanın rəhbərlik etdiyi bir qrup cinayətkar parlamentə daxil olaraq iclas zalını odlu silahlardan davamlı atəşə tutmuşlar. Cinayətkar dəstə özlərilə bir neçə nəfəri girov götürmüşdü. Baş nazir Vazgen Sarkisyan və spiker Karen Dəmirçyan da daxil olmaqla səkkiz nəfər öldürülmüşdü.

Beş il sonra 7 terrorçunun məhkəməsi keçirilib. Onlardan altısı ömürlük, digəri isə 14 il azadlıqdan məhrum edilib. Lakin terror aktının əsl sifarişçilərinin adları hələ də açıqlanmayıb.

Ermənistan cəmiyyətində belə yekdil rəy formalaşıb ki, həmin hadisənin sifarişçisi Rusiya olub. Bu fakt rəsmən öz təsdiqini tapmasa da, zaman-zaman bu istiqamətdə müzakirələr aparılır. Paşinyandan əvvəlki hakimiyyət həmin cinayət işini xitama göndərib. Yəni terror aktının sifarişçiləri ilə bağlı hüquqi araşdırma yarımçıq saxlanıb.

Paşinyan hakimiyyətinin bu son addımı növbəti anti-Rusiya gedişi kimi qiymətləndirilir. Paşinyan bununla Ermənistan cəmiyyətində Rusiyanın nüfuzunu tamamilə heçə endirməyi hədəfləyə bilərmi?

Politoloq Əhəd Məmmədli "Bakı-Xəbər"ə bildirdi ki, bu, təsadüfi hadisə sayıla bilməz: "Təbii ki, belə işlərin hamısının icazəsi Paşinyandan alınır. Baş verən məlum terror hadisəsinin üstündən 20 il keçəndən sonra onun yenidən araşdırılması ilə Paşinyan cəmiyyətə müxtəlif mesajlar verir. Demək istəyir ki, keçmiş hakimiyyət bunu araşdırmaqda maraqlı olmayıb. Deməli, onların da bu məsələdə maraqları və əlləri ola bilər. Faktiki olaraq bununla Paşinyan özündən əvvəlki "Qarabağ klanı"nın hakimiyyətini öz xalqına qarşı cinayət törətməyə, onun nəticələrini ört-basdır etməyə şərik saymış olur. İkinci tərəfdən isə Paşinyan bununla Rusiyaya qarşı kompromat toplayır. Çünki Ermənistan ictimai rəyində bu fikir hakimdir ki, bütün bu cinayətin törədilməsində məqsəd Ermənistanın o vaxtkı rəhbərliyini Dağlıq Qarabağ probleminin həlli ilə bağlı getmək istədiyi güzəştlərdən çəkindirmək olub. Bu miqyasda hadisənin isə yalnız Rusiyanın dəstəyilə törədilə biləcəyinə dair rəylər daha çox səslənir. Paşinyan çalışır ki, bu şayiələri hüquqi sənədə salsın və əlində Rusiyaya qarşı bir dəlil tuta bilsin.

Rusiya ilə Ermənistan arasındakı münasibətlərdə soyuq mehlər əsir. Rusiyanın həmin ölkədəki səfirinin son mətbuat konfransında dediyi fikirlər buna sübutdur. Səfir dedi ki, müttəfiq axtarışını bir qədər yumşaq edin. Bu xəbərdarlıq göstərir ki, Paşinyan Rusiyanın caynağından çıxmağa can atır, amma bunu edə bilmir. Hələlik isə Ermənistanın daxili işlərinə aid olan problemləri qabartmaqla, Rusiyanı maksimum dərəcədə hörmətdən salmağa çalışır. Mən inanmıram ki, həmin cinayət işinin bərpası ilə Paşinyan konkret olaraq Rusiya amilinin sənədə salınmasına nail ola biləcək. Sadəcə, ictimai rəydə Rusiyanı hörmətdən salmağa çalışır, vəssalam. Həmin hadisəni törədənlər həbsdədir, bəziləri azad olunub, bəzliləri isə ölüb. Yəni cinayətə görə cəzalar verilibsə, burada araşdırmalı nəsə qalmır".

***Məhəmmədəli QƏRİBLİ***

# Liviyada Rusiya və Türkiyənin hərbi üz-üzə gəlmək təhlükəsi var

## *Əli Orucov: "Düşünmürəm ki, indiki situasiyada Rusiya Liviyada Türkiyə ilə toqquşma yolunu tutsun"*

**Bu günlərdə Türkiyə ilə Liviyadakı Milli Barışıq Hökuməti arasında "Təhlükəsizlik və hərbi əməkdaşlığa dair razılaşma sənədi" və "Dəniz səlahiyyət sahələrinin məhdudlaşdırılmasına dair razılaşma sənədi" imzalanıb. Sözügedən pakt həm Türkiyə, həm də Liviyanın dəniz yurisdiksiyalarını müəyyənləşdirir, digər bölgə ölkələrinin və beynəlxalq firmaların birtərəfli və qanunsuz fəaliyyətlərini rədd edir.**




Beynəlxalq dəniz qanunlarına uyğun olaraq, hər iki ölkənin hüquqlarını qorumağı hədəfləyir. Həmçinin, bu müqavilə ilə Türkiyənin Şərqi Aralıq dənizi sahəsi kəskin şəkildə genişlənib. Bu isə Rusiya başda olmaqla, bir sıra dövlətlərin narahatlığına səbəb olub.

Məlumat üçün qeyd edək ki, Türkiyə Liviyada legitim hökuməti - Faiz Sərracı, Rusiya isə legitim hökuməti devirməyə çalışan qiyamçıları dəstəkləyir. Qiyamçılara da Xəlifə Haftar rəhbərlik edir. Məhz bu səbəbədən də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkəsinin Liviyadakı Xəlifə Həftarı dəstəkləyən Rusiyaya məxsus muzdlulara qarşı səssiz qalmayacağını bəyan edib: "Soruşmaq istərdim ki, Sudandan beş min və "Vaqner"dən iki min əsgər Liviyaya hansı sifətlə gəlib? Onlar orada nə edirlər? Haftarın heç bir legitimliyi yoxdur. O, legitimliyi olmadan vəziyyətdən sui-istifadə edir. Beynəlxalq ictimaiyyət Liviyada lider kimi Sərracı tanıyır".

Ərdoğan onu da bilfirib ki, Liviyadan dəvət gəlsə, Türkiyə oraya hərbi kontingent göndərəcək.

Kreml isə Türkiyənin Liviyaya mümkün hərbi qoşun yeritməsindən narahatlığını vurğulayıb.

O baxımdan bütün bunları nəzərə alsaq, Türkiyə ilə Rusiyanın Liviyada qarşı-qarşıya gəlmək riski artır. Çünki bu ölkələr fərqli tərəflərdə yer alıblar. 2011-ci ildə Liviyada Qəddafi devriləndən sonra ölkədə qeyri-sabitlik davam edir. Mərkəzi hakimiyyət bütün ölkəyə nəzarət edə bilmir.

Bütün hallarda, yaranan hazırkı mürəkkəb vəziyyətdə Türkiyə ilə Rusiya Liviyada üz-üzə gələ bilərmi? Belə bir halın baş verməsi nə dərəcədə mümkündür?

## *"Ortada nə qədər gərginlik olsa da, tərəflər uzlaşmağa çalışacaqlar"*

Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, Liviya önəmli strateji mövqedə yerləşdiyi üçün, bu ölkə uğrunda mübarizə gedir: "Nəzərə almaq lazımdır ki, Liviya Aralıq dənizi sahillərində yerləşir. Bu ölkənin zəngin qaz və neft ehtiyatları var. Liviyanın ərazisi böyük olsa da, əhalisi çox deyil. Bu baxımdan adıçəkilən ölkə böyük dövlətlərin diqqətini cəlb edir. O da məlumdur ki, Rusiya ilə Türkiyə fərqli qüvvələri dəstəkləyirlər. Əslində, burada Türkiyə doğru mövqedədir. Ona görə ki, legitim hakimiyyəti dəstəkləyir. Rusiyanın üsyançıların yanında olması o demək deyil ki, Moskva Liviyada Ankara ilə mütləq toqquşacaq. Düşünmürəm ki, indiki situasiyada Rusiya Liviyada Türkiyə ilə toqquşma yolunu tutsun. Çünki iki ölkə arasında böyük enerji layihələri var. Suriyada tərəflər əməkdaşlıq edirlər. Hansı ki, Suriyada Rusiya Əsədi, Türkiyə isə Əsədə müxalif olan qüvvələri dəstəkləyir. Orada anlaşa bilirlərsə, fikrimcə, Liviya ilə də bağlı ortaq məxrəc tapacaqlar. Putin mətbuat konfransında qeyd etdi ki, Liviyada hər iki tərəflə işləyirlər.

**Ona görə də ortada nə qədər gərginlik olsa da, Rusiya ilə Türkiyə uzlaşmağa çalışacaqlar. Nəzərə almaq lazımdır ki, yaranan vəziyyətlə bağlı Ərdoğan nümayəndə heyətini Moskvaya göndərib. İstənilən halda, Moskva Türkiyəni itirməməyə çalışacaq. Çünki Rusiyanın Qərblə münasibətləri gərgindir. Xüsusən də ABŞ-la. Belə vəziyyətdə Türkiyəni itirmək Kremlə əsla sərf etmir".**

***Vidadi ORDAHALLI***

**Ermənistanda baş verən son proseslər bu ölkədə mövcud hakimiyyətin həm "Qarabağ klanı", həm də Rusiya ilə ziddiyyətlərinin böyük sürətlə dərinləşməkdə olduğunu göstərir. Elə bu fonda Nikol Paşinyan iqtidarının 1999-cu ildə parlamentdə baş vermiş terror aktı ilə bağlı cinayət işinin istintaqını bərpa etməsi heç də təsadüfi sayılmır.**

# Paşinyanın yaxın silahdaşı şəxsən Putinə qarşı açıq dövləti cinayət ittihamlarına başladı

*"Qarabağ klanı" və Rusiyaya qarşı yeni həmlə Paşinyanın sonunu tezləşdirəcək*



Belə görünür ki, bu işin bərpa edilməsi ilə Paşinyan "Qarabağ klanı"nın üzvlərinin həbsə atılması istiqamətində yeni proseslərə start verir. Amma erməni mediası məsələnin bir ucunun artıq Rusiyaya toxunduğunu da xüsusi vurğulayır.

Bu barədə danışmazdan öncə qeyd edək ki, Ermənistan Baş Prokurorluğu 1999-cu ildə parlamentdə baş vermiş terror aktı ilə bağlı cinayət işinin istintaqını bərpa etməyə qərar verib. Prokurorluğun sözçüsü Arevik Xaçatryanın sözlərinə görə, parlamentə hücumda öldürülən spiker müavini Yuri Baxşyanın arvadı Anait Baxşyan və onun nümayəndəsi terror aktı barədə ədalətli qərar qəbul edilməməsi barədə şikayət edib:"Şikayət baş prokuror tərəfindən təmin edilib və iş davam etdirilməsi üçün istintaq orqanına göndərilib".

Xatırladaq ki, 27 oktyabr 1999-cu il tarixində bir neçə terrorçu Ermənistan parlamentinin binasına daxil olaraq, spiker Karen Dəmirçiyanı, baş nazir Vazgen Sarkisyanı, spikerin müavinləri Yuri Baxşyanı və Ruben Miroyanı, operativ məsələlər üzrə nazir Leonard Petrosyanı, deputatlar Armenak Armenakyanı, Henrix Abramyanı və Mikael Kotanyanı güllələyib. Terrorçuların məhkəməsi 2001-ci ilin fevral ayında başlayıb və 2003-cü ilin dekabr ayına qədər davam edib. Altı terrorçu, o cümlədən qruplaşmanın rəhbəri Nairi Unanyan, onun qardaşı Karen Unanyan, onların dayısı Vram Qalstyan, həmçinin Derenik Becanyan, Edik Qriqoryan və Aşot Knyazyan ömürlük həbs cəzasına məhkum edilib. Adları çəkilənlərin hamısı vətənə xəyanətdə, terrorçuluqda, xüsusilə təhlükəli dövləti cinayətlərin törədilməsində ittiham edilib. Elə o vaxtdan bəri Ermənistan mediasında fikirlər səslənir ki, parlamentdə törədilən terror aktının arxasında o vaxtkı Ermənistan rəhbərliyi, yəni həmin vaxt iqtidarda olan Robert Köçəryanla komandası dayanır. Elə bir neçə şahidin hakimiyyət tərəfindən aradan götürülməsi də bu fikirləri gücləndirir. Məhz bütün bunları əsas kimi götürmək istəyən Paşinyan iqtidarı həmin dövrdə hakimiyyətdə olan "Qarabağ klanı"nın daha çox sayda üzvünü sıradan çıxarmağı düşünür. Bu gedişlə Köçəryanın üzərinə əlavə ittihamlar qoyulması, digər sabiq prezident Serj Sarksiyanın bu məsələ üzrə cinayətə cəlb olunması tamamilə gözlənilən hal sayılır. 27 oktyabr cinayətinin istintaqını həyata keçirən hakim Samvel Uzunyan da diqqət mərkəzindədir.

Amma o, artıq ölkədən qaçıb. Hüquq-mühafizə orqanlarının diqqət mərkəzində olan Samvel Uzunyan Ermənistanda deyil. O, saxlanması barədə məhkəmədə müzakirə keçirilən gün Ermənistanı tərk edib və hazırda barəsində axtarış elan olunub. Hakim Uzunyan 51 min dollar rüşvət iddiasında ittiham olunur. Lakin onun 27 oktyabr prosesinə cəlb edilməsi də gözlənilir. Erməni hüquq müdafiəçisi Artur Sakunts bildirir ki, Moskva Samvel Uzunyanı gizlətmək qərarına gəlib:"Bu artıq Ermənistan hökuməti üçün həyəcan təbili olmalıdır. Rusiya Ermənistandakı cinayətkarların yuvasına çevrilib. Bu artıq Ermənistan hakimiyyəti üçün həyəcan təbili olmalıdır". O qeyd edib ki, Uzunyanın Moskvaya uçması qəribə deyil:"Təbii ki, o, Moskvaya getməli idi. Çünki yalnız orada cinayətkarlara himayədarlıq edilir. Ona görə ki, Kreml cinayətkarların və cinayətkarların himayədarlarının iqamətgahıdır. Təsadüfi deyil ki, "1 mart" və artıq həmçinin "27 oktyabr" cinayətlərində adları hallanan şəxslər Moskvaya sığınır. Bu hadisə bir daha onu sübut edir ki, Kreml dövlət cinayətlərini törədən böyük və ya onlara dəstək verən ayrı-ayrı şəxslərin himayədarlığında maraqlıdır. Məhz Moskvanın birbaşa maraqlarının olması səbəbindən cinayətlərin açılmasına tərəfdar deyil". Uzunyanın Moskvada peyda olması faktını 27 oktyabr hadisəsində zərərçəkənlərin nümayəndələrindən biri Levon Yeqiazaryan da təsadüf hesab etmir:"Samvel Uzunyan 27 oktyabr cinayətini saxtalaşdıranlardan biridir. Təbii ki, o, Moskvaya qaçıbsa, oradan geri qayıdan deyil. Mən əminəm ki, onun təhvil verilməsi məsələsi qaldırılarsa, Rusiya bunu rədd edəcək. Uzunyan Rusiya üçün 27 oktyabr hadisəsində çox mühüm subyektdir. Onlar Vahaqn Arutyunyanı, Miqran Poqosyanı, Alrağalı Lyoviki qoruyub saxlayırlarsa, o halda Uzunyanı dəqiq geri qaytarmayacaqlar. Rusiya hər şeyə qadirdir. Uzunyanın bir daha Ermənistana qayıdacağını yaddan çıxarın".

Bundan əvvəl isə Vazgen Sarkisyanın qardaşı Aram Sarkisyan da Rusiyanı həmin terror aktına görə ittiham etmişdi: "Birmənalı olaraq bu hadisənin üstünün açılması üçün manеə var. Və mən birmənalı şəkildə indiki hakimiyyətin də, dövlətin də imkanlarını, məntiqi nəzərə alıram. Ona görə də hakimiyyətin dəyişməsindən sonra öz müsahibələrimdə əsasən bu mövzudan yan keçməyə çalışmışam, onu qaldırmamışam". Sarkisyanın sözlərinə görə, 27 oktyabr cinayətinin üstü ancaq Rusiyada hakimiyyət dəyişəndən sonra açıla bilər.

**Nikol Paşinyanın silahdaşı Andranik Koşaryan da daha öncə sensasiyalı bəyanatla çıxış edib: "Oktyabr ayının 27-də törədilən cinayətin üstü açılıb. Sifarişçilər məlumdur. Bu, Rusiyanın xüsusi xidmət orqanları tərəfindən Vladimir Putinin əmri ilə həyata keçirilib". Putinə qarşı Paşinyanın silahdaşının belə bir ittihamla çıxış etməsi, aydındır ki, baş nazirin razılığı olmadan mümkün deyil. Beləliklə, 27 oktyabr cinayəti Paşinyan iqtidarının "Qarabağ klanı", eləcə də Rusiya ilə münasibətlərinin daha da kəskinləşəcəyini aydın nümayiş etdirir. Təbii ki, onlar da buna cavabsız qalmayacaq. Belə vəziyyət isə Ermənistanı hələ çox gərgin günlərin gözlədiyini deməyə əsas verir.**

***Ramil QULİYEV***

# Ermənistan Gürcüstanın "sakit işğalına" başlayıb - Türkiyədən Azərbaycanadək sərhədi azı 400 metr içəri giriblər, baş nazir açıq bəyanat verdi...

**Gürcüstan prezidenti Salome Zurabişvili maraqlı bir açıqlama ilə çıxış edərək bildirib ki, Tiflis Ermənistanla sərhəd məsələsini həll etməlidir. O, sərhəd əraziləri barədə xatırlatma verərək qeyd edib ki, demarkasiya prosesi dayandırılıb.**

Zurabişvilinin sözlərinə görə, sona qədər dövlət kimi formalaşmaq üçün Gürcüstan bütün mübahisəli sərhəd məntəqələrini müəyyən etməlidir. O, Ermənistanla sərhədlərin tam razılaşdırılması gərəkdiyini bildirib: "Bizim aramızda olan bu prosesi niyə bitirməməyimiz mənim üçün aydın deyil. Bizim komissiyalar bu istiqamətdə işləməyə başlamalıdırlar".

Ekspertlərə görə, Zurabişvilinin Ermənistanla sərhəd məsələsinə toxunması heç də təsadüfi xarakter daşımır. Ən azı baxımdan ki, müxtəlif vaxtlarda Ermənistan sərhəd xətlərini Gürcüstana tərəf "sürüşdürür". Hətta bu günlərdə "Kavkaz plyus" portalı açıq şəkildə yazmışdı ki, Ermənistan Gürcüstan torpaqlarını işğal edərək separatçılıq edir. Ərazilərin birində isə ermənilər sərhədi 400 metrdən çox şimala çəkiblər və nəticədə gürcü ruhani və zəvvarların əvvəllər ziyarət etdikləri Xujabi monastırı erməni nəzarəti altına keçib. Nəticə etibarilə Türkiyədən Azərbaycana qədər bütün Gürcüstan-Ermənistan sərhədi qanunsuz olaraq şimala "sürüşdürülüb". Ermənistan hakimiyyəti Gürcüstanın onlarla kvadrat kilometr ərazisinə qanunsuz olaraq "sahiblik" edir. Özü də bunlar Gürcüstanda erməni separatçılıq təhdidinin hələ də davam etdiyi bir şəraitdə baş verir. Belə ki, Gürcüstan üçün Cavaxetiya məsələsi hələ də kifayət qədər aktualdır. Hazırda Cavaxetiyada ermənilərə ən böyük dəstəyi Ermənistan kəşfiyyatı verir. Erməni kəşfiyyatı insanlar arasında hay-küy yaratmağa və istənilən halda onları Gürcüstandan soyutmağa çalışır. Bu ərazidə 250 min erməni yaşayır. Cavaxetiyada əhalinin 55%-ni təşkil edən ermənilər hakimiyyətdən narazıdır və onlar hər an təxribat törətməyə də hazırdır. Cavaxetiya əhalisinin silahlanması da ciddi təhdid kimi göstərilir. Burada vaxtaşırı aparılan əməliyyatlarda hüquq-mühafizə orqanları əməkdaşları tərəfindən çoxlu sayda silah və döyüş sursatı yığılır.

Xatırladaq ki, Ermənistan özü də dəfələrlə Cavaxetiya regionunda yaşayan erməni əhalinin Gürcüstan hakimiyyəti tərəfindən təzyiqlərə məruz qalmasına dair ittihamlarla çıxış edib. Ermənilərin fikrincə, bu ərazilər əslində Gürcüstan ərazisi deyil. Dünya erməniləri də hesab edir ki, vəziyyət belə olacağı təqdirdə Gürcüstan hakimiyyətinin gedə biləcəyi yeganə yol Samsxe-Cavaxetiyaya muxtariyyət vermək və bu regionda erməni dilini ikinci dövlət dili elan etməkdir. Lakin rəsmi Tiflis buna qarşı çıxır. Buna rəğmən, ermənilər İrəvandan aldıqları dəstəklə məkrli niyyətlərini burada reallaşdırmaqda maraqlı tərəf olaraq qalır. Baş verənlərə paralel olaraq sərhədlərin "sürüşdürülməsi" məsələsi Gürcüstan üçün daha böyük təhlükəyə çevrilir. Məlumatlara görə, Ermənistan tərəfi Gürcüstan ərazisinə qanunsuz olaraq hərbi bölmələrini də daxil edir. Ekspertlər bildirir ki, bununla ermənilər Gürcüstan ərazisində hərbi əməliyyatları tətikləməyə çalışır. Bu zaman Rusiyadan aldığı dəstəklə İrəvan Cavaxetiya fonunda ikinci Qarabağ ssenarisinin işə düşə biləcəyinə ümid edir. Ümumilikdə, Qafqazda potensial münaqişə ocağı olan Cavaxetiya problemi təkcə Gürcüstan üçün deyil, bütövlükdə Qafqazda sülhün və sabitliyin davamlılığı, eləcə də Avropanın enerji təhlükəsizliyi üçün ciddi təhdidlər doğurur. Belə ki, Gürcüstandan qopmuş Cənubi Osetiya ilə cənubdan potensial separatizm ocağı olan Cavaxetiya da Gürcüstandan qoparsa, bu ölkənin ərazisi faktiki olaraq iki hissəyə bölünmüş olar. Belə vəziyyətdə Avropanın enerji təhlükəsizliyində əhəmiyyətli rol oynayan neft-qaz boru xətləri üçün də təhlükə yaranır. Bu halda erməni separatçılığın dayandırılması üçün gürcü tərəfinin, onun Qərb dəstəkçilərinin daha qəti hərəkət etməsi vacibdir. Eləcə də sərhəd məsələsi artıq öz həllini tapmalıdır.




Onu da bildirək ki, Gürcüstan-Ermənistan sərhədinin demarkasiyası və delimitasiyası hələ də Ermənistan tərəfinin mövqeyinə görə aparılmır. Hesab olunur ki, Gürcüstan-Ermənistan sərhədinin demarkasiyası və delimitasiyası aparılmasa, Tiflis erməni təhdidindən daha çox əziyyət çəkəcək. Baş verənlər ermənilərlə sərhəd zonalarda yaşayan yerli əhalini, o cümlədən Gürcüstan azərbaycanlılarını da ciddi şəkildə narahat edir. Yerli əhali Gürcüstanın rəsmi dairələrinə şikayət etsə də, hələlik nəticə yoxdur. Ermənistan sərhədçiləri isə sərhəd xəttini yavaş-yavaş sərhəd kəndlərinin ərazilərinə doğru "sürüşdürür".

Bu mənada, Gürcüstan-Ermənistan sərhədlərinin delimitasiya və demarkasiyası məsələsinin Salome Zurabişvili tərəfindən gündəmə gətirilməsi təsadüfi sayılmır. Sərhəd problemi çözümünü tapmasa, Ermənistanın Gürcüstan ərazisindəki təxribatları davam edəcək. Belə vəziyyət isə artıq bütün region üçün böyük təhlükə sayılır. Bu mənada, ermənilərin separatçı niyyətlərinə qarşı daha sərt addımlar atılması, dünya dövlətlərinin də bu prosesdə iştirakı olduqca önəmlidir. Əks təqdirdə ermənilər üzündən Qafqazda yeni potensial münaqişə ocaqlarının olması qaçılmazdır.

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# "Qarabağ məsələsində status-kvo pozulanda bizim diplomatik, hüquqi, siyasi mövqeyimiz çox zəif olacaq" - Ermənistan yeni şokda...

**Azərbaycanın istər hərbi, istərsə də diplomatik müstəvidə Ermənistan üzərində əldə etdiyi üstünlüklər və bu prosesin davam etməsi düşmən ölkədə getdikcə daha böyük rezonansa səbəb olur. Məsələ ilə bağlı erməni diplomat Arman Məlikyanın verdiyi açıqlamalar elə bu fonda xüsusi diqqət cəlb edir.**

O bildirir ki, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində Ermənistan daha böyük problemlər yaşamağa başlayır: "Baş verənlərə hüquqi, beynəlxalq prizmadan yanaşsaq, Azərbaycan tərəfinin üstünlüklərini aydın görə bilərik. Məsələ burasındadır ki, Bakı təhlükəsizlik və ərazi bütövlüyü kimi məqamları uğurla birləşdirib. Bu mənada, erməni tərəfi artıq ciddi problemlərlə üzləşir və qeyd edilənlər bizim üçün "Axilles dabanı"dır. Qarabağ ətrafında yaranan mövcud vəziyyət erməni tərəfi üçün çox mənfidir. Bu səbəbdən konfliktlə bağlı staus-kvo istənilən halda pozulacaq, Amma o pozulduğu vaxt bizim diplomatik, hüquqi, siyasi mövqeyimiz çox zəif olacaq".

Ermənistanın "Politik.am" nəşri də Arman Məlikyanın haqlı olduğunu yazır. Bütün bunlara əsas səbəb kimi isə Ermənistanda mövcud hakimiyyətin yol verdiyi çoxsaylı yanlışlıqlar göstərilir: "Səmimi olsaq, Ermənistanda baş vermiş hakimiyyət dəyişikliyi Cənubi Qafqazda hökm sürən atmosfer mənasında heç bir dəyişikliyə səbəb olmayıb. Hətta Qarabağ münaqişəsinin həllinin danışıqlar prosesində belə dəyişiklik olmayıb. Regionda qüvvələrin vəziyyəti eyni qalıb, münaqişənin həll prosesində də dəyişikliklər yoxdur və ola da bilməz, çünki hər şeydən öncə, Ermənistan hakimiyyət dəyişikliyindən sonra xarici siyasi vektorunda və regional inteqrasiya üstünlüklərində hər hansı qaydada dəyişiklik etməyib. Nəticə etibarı ilə, xarici siyasət sahəsində dəyişiklik yoxdursa, regionda da böyük hesabda dəyişiklik ola bilməz. Paşinyan Qarabağ rejiminin danışıqlar prosesində iştirakı məsələsində Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın iki məşhur televiziya müsahibəsini izləyərək öz biliklərini yeniləyə bilər. O bilməlidir ki, bu mümkün deyil. Yaranmış vəziyyətdən istifadə edən Azərbaycan Ermənistanı daha çox sıxışdırmağa başlayır".

Ermənistanın "Qraparak" nəşri də Paşinyanın Qarabağ məsələsində yalnız yalanlar səsləndirdiyini vurğulayır. Qəzetin yazdığına görə, Ermənistan və qondarma qurumun "təhlükəsizlik şuraları"nın birgə iclası zamanı Paşinyan bildirib ki, Qarabağ məsələsinin nizama salınması istiqamətində atdığı bütün addımlar yaxşı nəticələr verib və "məxməri inqilab"dan sonra Ermənistanın mövqeləri möhkəmlənib:"Baş nazir, görünür, reallıq hisslərini itirib və baş verənlərdən xəbəsizdir. Beynəlxalq Böhran Qrupunun Ermənistanı keçmiş Azərbaycan ərazilərində yaşayış məntəqələri inşa etməməyə çağıran hesabatı barədə niyə susursunuz? Bu, danışıqlar masası ətrafında bizim möhkəmlənmiş mövqeyimizdir? Belədirsə, onda niyə baş nazir silahlanmamız və yeni silahlarımız fonunda şəkillər paylaşır, misli görünməmiş sayda silah alınması barədə danışır? Məgər bu, "tərəflərin mövqelərinin yaxınlaşması" kontekstində düzgündür? Deməli, Paşinyan yenə həmişəki kimi yalan danışır. Azərbaycan isə belə vəziyyətdə real iş görür, beynəlxalq mövqeyini gücləndirir".

Qeyd edilənlərlə yanaşı, düşmən ölkədə diqqət hədəfində olan daha bir məsələ Nikol Paşinyanın Azərbaycanın işğal edilmiş ərazilərində yaradılan qondarma rejimin "təhlükəsizlik şurası" ilə birlikdə İrəvanda keçirdiyi iclasda çıxışı zamanı ötən aylarda separatçı "DQR"in danışıqlar prosesinə cəlb edilməsi istiqamətində irəliləyişin olduğunu iddia etməsidir. Halbuki, erməni mediası bunun yalan olduğunu yazır. Eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyev də yerli jurnalistlərə müsahibəsində bəyan etdi ki, Ermənistanın 2019-cu ildə danışıqlar formatını dəyişdirmək cəhdləri baş tutmadı. Elə il ərzində Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlar prosesi də Paşinyanın planlarının alt-üst olduğunu təsdiqləyir. Ermənistanın danışıqlar formatını dəyişdirmək və separatçı rejimi masaya tərəf kimi gətirmək cəhdləri Vyana görüşündə tamamilə sıradan çıxdı. Hərçənd, Paşinyan daxili auditoriyanı aldatmağa davam edir. Erməni politoloq Stepan Qriqoryan da Paşinyanın yalan danışdığını bildirir. Onun sözlərinə görə, Dağlıq Qarabağın danışıqlar prosesində iştirakı ilə bağlı məsələ yarımçıq qaldı və beynəlxalq ictimaiyyətin bu məsələdə yanaşması dəyişmədi:"Bu, Ermənistan diplomatiyasının pis işləməsinin nəticəsidir. Bu göstərir ki, baş nazir kobud şəkildə yalan danışır". O, danışıqlar prosesinin Azərbaycanın ssenarisinə daha çox uyğun gəldiyini bildirərək, Ermənistanın diplomatik məğlubiyyətlərinin davam etdiyini vurğulayır.

Digər açıqlamalardan da bəlli olur ki, düşmən tərəf Azərbaycan diplomatiyasının Ermənistanın işğalçı obrazını yarada bildiyini etiraf edir. İrəvanın bundan qurtulması, özünü müdafiə etməsi getdikcə daha çox müşkülə çevrilir.

Düşməni narahat edən digər məqam Azərbaycanın diplomatik uğurlar fonunda hərbi əməliyyatlara başlaya biləcəyidir. Belə ki, indi bu diplomatik uğurlar Azərbaycanın mövqeyinə beynəlxalq dəstəyi artırır. Bunu erməni şərhçi Aram Sarkisyan da xüsusi olaraq vurğulayır: "Bakı mövqeyini gücləndirir, beynəlxalq miqyasda əlavə dəstək alır. Paralel olaraq hərbi hazırlığını da artırır. Gələn il üçün Azərbaycanın hərbi xərcləri də bunu təsdiq edir. Bir daha xatırladım ki, Azərbaycan hökuməti 2020-ci ilin büdcəsində müdafiə və milli təhlükəsizlik üçün 2 milyard 267 milyon dollar ayırmağı planlaşdırır. Bu, 2019-cu ildə ayrılan məbləğdən 20,9% çoxdur. Burada, əlbəttə ki, müdafiə və təhlükəsizlik xərclərinin real həcmi barədə daha dəqiq məlumat əldə etmək üçün nəzərə alınmalı bəzi nüanslar var. Hesablanmayan bəzi rəqəmləri nəzərə alsaq, Ermənistanın hərbi büdcəsinin həcmi təhlükəsizlik problemlərimizlə müqayisədə təsiredici görünmür. Bu, Nikol Paşinyanın rəhbərlik etdiyi hökumətin tənqidçilərinə ölkəmizin təhlükəsizlik sahəsinə laqeyd qaldığı bir vaxtda Azərbaycanın yeni müharibəyə hazırlaşdığını bəyan etmə imkanı verir. Özü də bunlar o fonda cərəyan edir ki, Azərbaycan burada yanına yeni güclər alır. Məsələn, Rusiyanın Bakı və İrəvana münasibəti artıq fərqlidir. Moskvanın bizi müdafiə edəcəyinə inam yoxdur. Ümumiyyətlə, Rusiya Ermənistanda yürüdülən Qarabağ siyasətindən də narazıdır". Digər tərəfdən, erməni ekspert etiraf edir ki, Azərbaycandan fərqli olaraq, ölkəsində hərbçilərin durumu da olduqca ağırdır. Bütün bunlar yaranmış durumda erməni tərəfinin ciddi narahatlıq içində olduğunu aydın nümayiş etdirir. İndi Rusiyadan da əli üzülən Ermənistan Qarabağ münaqişəsinin hərbi həlli halında çox sarsıdıcı zərbələr alacağını yaxşı bilir. Hadisələrin elə bu istiqamətdə inkişafı isə düşmənin təşviş və qorxusunu daha da artırır. Rəsmi Bakı isə bundan əvvəl dəfələrlə bəyan edib ki, Ermənistan tərəfinin məsuliyyətsiz davranışı münaqişənin sülh yolu ilə həllinə yönələn bütün səyləri heçə endirə bilər. Belə şəraitdə də savaşa əl atılması qaçılmaz sayılır. Ermənistanın bu halda Azərbaycanın qarşısında duruş gətirməsi mümkünsüzdür. İlk növbədə o baxımdan ki, bu gün Azərbaycan iqtisadi, hərbi, siyasi, diplomatik gücünə görə Ermənistanı çox geridə qoyur. Digər tərəfdən, real vəziyyət göstərir ki, Ermənistanın çöküşü, xüsusən də bu ölkənin əhalisinin sayının yüksək templə azalması İrəvanı daha aciz duruma salır və Qarabağ münaqişəsinin taleyinə birbaşa təsir göstərir. Yeri gəlmişkən qeyd edək ki, təkcə rəsmi rəqəmlərə görə, Ermənistan əhalisi son 27 il ərzində 600 min nəfər azalıb. Reallıqda isə bu rəqəmin ən azı 2 dəfə çox olduğu, ölkədə yaşayan real əhalinin sayının heç 2 milyona belə çatmadığı da məlum həqiqətdir. Rəsmi statistikaya əsasən, Ermənistanda əhalinin 46,5 faizini kişilər, 53,5 faizini qadınlar təşkil edir. Bunun başlıca səbəbi isə emiqrasiya sayılır.

Aydındır ki, belə vəziyyət erməni ordusunun durumuna da birbaşa təsir edir, onun şəxsi heyətlə təminatı sarıdan ciddi problemlər yaradır. Erməni ordusu ilə bağlı problem təkcə şəxsi heyətlə təminat sarıdan özünü göstərmir. Ölkədə ordunun maddi-texniki təminatı sarıdan da ciddi çətinliklər özünü qabarıq şəkildə büruzə verir. Azərbaycan bu istiqamətdə böyük nailiyyətlərə imza atdığı bir vaxtda Ermənistanda qeyd edilən istiqamət üzrə ciddi çöküş müşahidə olunur. Xatırladaq ki, Azərbaycanda ordu quruculuğu prosesində, həmçinin Silahlı Qüvvələrin maddi-texniki təminatında mühüm nailiyyətlər əldə edilib. Faktdır ki, ordunun istər döyüş hazırlığı, istərsə də texniki vasitələrdən tutmuş digər maddi ehtiyatlarla təchizatı baxımından Azərbaycanla düşmən ölkə arasında fərq dəfələrlə ölçülür. Özü də Azərbaycan Silahlı Qüvvələrinin maddi-texniki təminatının artıq xeyli hissəsini öz potensialı hesabına ödəməkdədir. Yaxın perspektivdə isə ölkənin müdafiə sənayesinin istehsal etdiyi məhsulların çeşidinin daha da çoxaladacağı gözlənir ki, bu da Silahlı Qüvvələrin texniki ehtiyacının əsas etibarilə yerli istehsal hesabına ödəniləcəyindən xəbər verir. Eləcə də ordunun döyüş qabiliyyəti baxımından ölkəmiz böyük uğurlara imza atıb. Amma Ermənistan bütün bunlardan məhrumdur. Məhz bu halda Qarabağ məsələsində Azərbaycan getdikcə daha güclü mövqe sahibinə çevrilir. İndi bu məqam Ermənistanın özündə də açıq etiraf olunan həqiqətdir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Az qala hər gün dünya ictimaiyyəti ermənilərin yeni saxtakarlıqları və əsassız iddiaları ilə rastlaşır. Tarixən türklərə məxsus olan ərazilərə qarşı iddialar irəli sürən ermənilər bununla kifayətlənməyib, başqa əməllərə əl atmaqda davam edirlər. Ermənilər son zamanlar daha çox Qars müqaviləsinə qarşı müxtəlif əsası olmayan fikirlər səsləndirirlər.**

# Ermənilərin Qars müqaviləsini 100 illik müddətə bağlamaq səyləri - Azərbaycan yenə ifşa edir



***Qasım Hacıyev:** ”Ermənilərin Qars müqaviləsinin 100 illik müddətə bağlanması ilə bağlı fikirləri əsassız iddiadan başqa bir şey deyil”*

Onlar iddia edirlər ki, guya ki, Qars müqaviləsi 100 illik müddətə bağlanıb və 2021-ci ildə müqavilənin bağlanmasının 100 illiyi tamam olur, o sənəd legitimliyini "itirir". Bu, növbəti erməni yalanından başqa bir şey deyil. Bildiyimiz kimi, müddətli müqavilə Azərbaycan torpaqlarının ikiyə bölünməsini reallaşdıran "Gülüstan" və "Türkmənçay" "sülh müqavilələri"dir ki, onlar 200 il müddətinə bağlanmasına baxmayaraq, hələ də Azərbaycan torpaqları birləşdirilməyib.

Qars müqaviləsi hansı ölkələr arasında bağlanıb və özündə hansı şərtləri ifadə edib?

Qars müqaviləsi tarixdən Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası ilə Türkiyə arasında 13 oktyabr 1921-ci ildə bağlanmış sülh müqaviləsi kimi keçir.

1921-ci il mart ayının 16-da Rusiya Sovet Federativ Sosialist Respublikası ilə Türkiyə Böyük Millət Məclisi (1923-cü ildə qurulacaq Türkiyə Cümhuriyyətinin sələfi) arasında bağlanmış Moskva sülh müqaviləsinin tələblərinin yerinə yetirilməsi çərçivəsində həmin il oktyabr ayının 13-də Azərbaycan, Ermənistan və Gürcüstan SSR-in daxil olduğu Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası ilə Türkiyə arasında Qars şəhərində imzalanan sülh müqaviləsi 1922-ci il sentyabr ayının 11-də qüvvəyə minib və bitmə müddəti müəyyənləşdirilməyib.

Qars müqaviləsini imzalayanlara gəlincə, tarixçilər qeyd edirlər ki, bir tərəfdə Ermənistan Sovet Sosialist Respublikası, Azərbaycan Sovet Sosialist Respublikası və Gürcüstan Sovet Sosialist Respublikası hökumətləri və o biri tərəfdə Türkiyə Böyük Millət Məclisi Hökuməti millətlərin qardaşlığına və xalqların öz müqəddəratını təyin etmək hüququ prinsiplərinə şərik çıxan, hər iki tərəfin qarşılıqlı maraqlarına əsaslanan daimi səmimi qarşılıqlı münasibətlərdən və fasiləsiz səmimi dostluq qurmaq istəyindən ruhlanaraq Rusiya Sosialist Federativ Sovet Respublikasının iştirakı ilə dostluq haqqında müqavilə bağlamaq qərarına gəlmiş və bunun üçün öz müvəkkillərini təyin etmişlər: Ermənistan Sovet Sosialist Respublikasının hökuməti: Askanaz Mravyan, xalq xarici işlər komissarı; Poqos Makinzyan, xalq daxili işlər komissarı. Azərbaycan Sovet Sosialist Respublikasının hökuməti: Behbud Şahtaxtinski, xalq dövlət nəzarəti komissarı. Gürcüstan Sovet Sosialist Respublikasının hökuməti: Şalva Eliva, xalq hərbi-dəniz işləri komissarı; Aleksandr Svanidze xalq xarici işlər komissarı və xalq maliyyə işləri komissarı. Türkiyə Böyük Millət Məclisi hökuməti: Kazım Qarabəkir Paşa, Böyük Millət Məclisində Ədirnədən millət vəkili, Şərq Cəbhəsi komandanı; Vəli bəy, Böyük Millət Məclisində Burdurdan millət vəkili; Muxtar bəy, İctimai işlər stats-sekretarının keçmiş müavini; Məmduh Şövkət bəy, Türkiyənin Azərbaycanda səlahiyyətli nümayəndəsi. Rusiya Sosialist Federativ Sovet Respublikasının hökuməti: Yakov Qanetski, Latviyada səlahiyyətli nümayəndə.

Qars müqaviləsi və erməni narazılıqlarından bəhs edən tarixçilər qeyd edirlər ki, ermənilər daim müqaviləni təhrif edən fikirlər irəli sürüb və onun şərtləri haqda həqiqətə uyğun olmayan fikirlər söyləyiblər.

Tarixi sənədlərdə qeyd edilir ki, Qars danışıqları və müqaviləsi, onun ayrı-ayrı maddələri Ermənistan və diaspor erməniləri tərəfindən birmənalı qəbul olunmadı. Bir tərəfdən, 27 sentyabr 1921-ci ildə "Sovet Ermənistanı" qəzetində dərc edilən "Qars sülh konfransı" adlı yazıda bu danışıqlar Ermənistanın müstəqilliyini möhkəmləndirə biləcək bir akt kimi qiymətləndirildi, digər tərəfdən isə ortada əks mövqelər özünü göstərirdi. Müqavilənin əleyhinə olan ermənilərin təmsil olunduğu mətbu orqanlar məsələyə başqa səpkidən yanaşırdılar.

Məlumatlara görə, Təbrizdə çıxan "Hayk" qəzetinin 13 sentyabr 1921-ci il sayında çap olunan "Pərdə götürülmüşdür" adlı baş məqalədə diqqətçəkən məqamlar yer alırdı. Orada yazılırdı: "Şanlı Qızıl ordunun komandanları Sovet federasiyasının tərkibinə daxil olan Ermənistanın mübahisəsiz hissəsini təşkil edən 1914-cü il sərhədlərində belə dayana və hətta balaca Naxçıvanı kamalçıların caynaqlarından qopara bilmədilər".

Məqalədə Qars müqaviləsinin nəinki Ermənistana, habelə Rusiyanın özünə də heç nə vermədiyi və sanki türk qoşunlarının təntənə ilə Moskvaya daxil olaraq məğlub Rusiyaya öz iradələrini diqtə etdirmələri təsiri bağışladığı göstərilirdi.

## ”Qars müqaviləsi müddətsiz bağlanıb”

Tarixçilər qeyd edirlər ki, sözügedən yazıda "erməni xalqının "xilaskar Rusiyaya" bəslədiyi ümidlər sadəcə yalandır və Rusiya digər imperialist dövlətlərdən özünün fərsizliyi və kütlüyü ilə fərqlənir; Ermənistan da onun qurbanıdır" - deyə bəhs edilirdi.

Daşnakların orqanı "Çakatamart"ın 6 iyul 1921-ci il tarixli sayında çap olunan "Ermənistanda vəziyyət" adlı yazıda Qars konfransının qərarlarından yalnız azərbaycanlıların razı qaldıqları bildirilirdi. Bütün bunlar, sözsüz, daşnak təbliğatı idi və tarixin sübuta yetirdiyi kimi, Rusiya zamanın və şəraitin, habelə öz siyasi məqsədlərinin imkan verdiyi səviyyədə Ermənistan üçün çox şey etmişdi.

Qars müqaviləsinin nəticələrindən narazı qalan və onun ermənilər üçün xeyirsiz olmasından (Naxçıvan bölgəsi, habelə digər ərazilərin ələ keçirilə bilməməsi və s.) şikayətlənən Ermənistandakı müəyyən dairələr və diaspor sakitləşməyərək başqa arxalar, vasitə və üsullar axtarışına girişmişdilər. Onlar hələ Moskva və Qars müqavilələri arasındakı bir dövrdə Millətlər Liqası cəmiyyətlərinin Cenevrədə keçirilən qurultayının (06.1921) belə bir qətnamə qəbul etməsinə nail oldular: "erməni millətinin müdafiəsi və inkişafı beynəlxalq ədalətin borcudur və erməni məsələsini ədalətlə həll etmədən Şərqdə sülh yaratmaq mümkün deyil".

Türkiyənin "Vəqt" qəzetinin 30.X.1921-ci il tarixində dərc edilən məlumata görə isə "erməni məsələsi" Vaşinqton konfransının (12.12.1921 - 6.02.1922) gündəliyinə daxil edilmədiyindən, Amerika erməniləri, ümumiyyətlə, Yaxın Şərq və o cümlədən də həmin problemin orada müzakirəsinə çalışırdılar. Erməni milli demokratlarının orqanı "Joqovurdi Dzaiyn" qəzetində (22.12.1921) aşağıdakı maraqlı məlumatlar dərc olunmuşdu: "1921-ci il noyabrın 21-də erməni milli demokratlarının və gənc hnçakçıların nümayəndələri (B.Kurkçan, V.Malkolm - Roma və Londondakı keçmiş İran səfiri Mirzə Mülkümxan Mamikonyanın oğlu, Amerika Erməniləri İttifaqı Siyasi şöbəsinin üzvləri və katibi Q.Papazyan) "Ermənistan-Amerika komitəsi"nin katibi Montqomerinin vasitəçiliyi və həmin komitə sədrinin müşayiətilə ABŞ Prezidenti U.Hardinqin qəbuluna (21.11.1921) gedərək, Türkiyə Ermənistanının azad olunmasını tələb etmişdilər. Elə həmin gün dövlət katibi A.Brianın qəbulunda olan daşnakların nümayəndələri isə Rusiya Ermənistanının azad edilməsi tələbini qoymuşdular".

Hər iki görüş zamanı gedən müzakirələrdən bəlli olur ki, ermənilər Moskva və Qars müqavilələrinə məhəl qoymayaraq, öz qonşularına, o cümlədən də Azərbaycana və onun Naxçıvan bölgəsinə dair ərazi iddialarını təkrarən müdafiə etmişlər. Qars konfransından sonra qaldırılan "erməni məsələsi" ilə bağlı Atatürkün bir fikrini burada xatırlatmaq yerinə düşərdi. O, çıxışlarından birində (01.03.1922) demişdi ki, bizim Şərqdəki faktiki vəziyyətimiz Qars müqaviləsilə hüquqi forma almışdır və bu müqavilə Sevr müqaviləsinin tətbiqolunmazlığını sübut edən amillərdən biridir, "erməni məsələsi" deyilən bu məsələ isə özünün ən düzgün həllini Qars müqaviləsində tapmışdır.

Ermənilərin hədsiz və eyni zamanda, imkanları ilə əsla uzlaşmayan iddiaları Qərbin müəyyən dairələrində də birmənalı qarşılanmırdı. Məsələn, vaxtilə Ermənistana ABŞ-ın ali komissarı təyin olunan polkovnik U.Haskel erməni xalqını "peşəkar dilənçi" kimi səciyyələndirərək yazırdı ki, ermənilər oğru, yalançı, tamamilə alçalmış, özlərinə yardım göstərməyi bacarmayan və bir-birinə kömək etmək istəməyən və hər cür minnətdarlıq duyğularından yoxsul olan kimsələrdilər; erməni xalqı arasında yurd duyğusu olmadığı kimi, ölkəni idarə etmək qabiliyyəti, inkişaf üçün pul və mənbə də yoxdur; qaçqınlar üçün açılan xəstəxanalardakı naxoşlara muzdla baxan ermənilər dava-dərmanları oğurlayaraq satırlar və s. İngiltərənin xarici işlər naziri Lord C.Kerzon erməni liderlərini "dəyərsiz kimsələr" adlandırırdı. Həmin nazirin müşaviri Hardinq isə ermənilərin xarakterini yaxşı bildiyindən, onların hərəkətlərinə təəccüblənmədiyini söyləmişdi.

Tarixçilər, həmçinin, qeyd edirlər ki, Qars müqaviləsinin ləğvinə uğursuz cəhdlər də baş verib, sözsüz ki, burada da əsas "rolu" ermənilər oynamaq istəyib, amma onlar buna nail ola bilməyiblər.

Azərbaycan Milli Elmlər Akademiyasının Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev bizimlə söhbətində bildirdi ki, Qars müqaviləsi müddəti müəyyən edilən müqavilə deyil, ona görə də onun hər hansı bir formada ləğvindən söhbət gedə bilməz. Q.Hacıyev vurğuladı ki, ermənilər dəfələrlə bu müqavilənin ləğv edilməsinə nail olmaq istəyiblər, lakin bu mümkün olmayıb. Onun sözlərinə görə, ermənilər hesab edirlər ki, onların Naxçıvana sahiblənə bilməmələrinin kökündə Qars müqaviləsi dayanır. Professorun bildirdiyinə görə, bu müqavilə ilə ermənilər indiyə qədər barışmaq istəmirlər: "Qars müqaviləsi müddətsiz bağlanıb və ermənilər heç vaxt onu pozmağa nail ola bilməzlər. Bu müqavilədə göstərilmir ki, müqavilə 100 illikdir, yaxud 200 illikdir. Belə bir məsələ yoxdur. Ermənilərin Qars müqaviləsinin 100 illik müddətə bağlanması ilə bağlı fikirləri əsassız iddiadan başqa bir şey deyil və bunun heç bir tarixi əsası yoxdur".

Qeyd edək ki, II Dünya Müharibəsindən sonra SSRİ Qars müqaviləsinin ləğv olunmasına və Türkiyəyə verilmiş ərazilərin geri qaytarılmasına cəhd göstərsə də, buna nail ola bilməyib. Məlumatlara görə, 1945-ci ilin iyununda SSRİ-nin xarici işlər naziri V.Molotov Moskvadakı Türkiyə səfirinə Türkiyəyə verilmiş ərazilərin geri qaytarılması tələbi ilə müraciət etdi. Bu tələb Türkiyəni çıxılmaz vəziyyətdə qoyurdu: o, bir tərəfdən faşizm üzərində qələbədən sonra beynəlxalq nüfuzunu daha da artırmış SSRİ ilə münasibətləri korlamaq, digər tərəfdən isə göstərilən ərazilərdən əl çəkmək istəmirdi. Bəzi ingilis diplomatları hələ 1939-cu ildə SSRİ-nin Qars müqaviləsinin ləğvi məsələsini gündəmə gətirəcəyini proqnozlaşdırmışdılar. Türkiyə müharibədən sonra fövqəlgüc kimi meydana çıxan Sovet İttifaqı ilə müharibəyə başlamaq istəmirdi. Artıq 1945-ci ilin payızında Qafqazdakı sovet qoşunları Türkiyəyə hücuma başlamaq üçün əmr gözləyirdilər.

Hətta SSRİ iddiaları ermənilər tərəfindən II Dünya Müharibəsinin qalib dövlətlərinin liderlərinə də çatdırılmışdı. Lakin İngiltərənin o vaxtkı baş naziri U.Çörçill buna qarşı çıxış etdi, çünki əlavə ərazilərin əldə edilməsi onsuz da müharibədən sonra nüfuzunu artırmış SSRİ-nin öz təsirini daha da möhkəmləndirməsinə təkan verə bilərdi. ABŞ-ın keçmiş prezidenti H.Trumen isə məsələnin başqa tərəflərə aidiyyəti olmamasına əsaslanaraq, bitərəflik nümayiş etdirməyi üstün tutdu. Nəhayət, SSRİ Türkiyəyə qarşı olan ərazi iddialarından əl çəkdi.

2016-cı ildə bəzi rus deputatların müqavilənin ləğvi ilə bağlı tələbləri KİV-də gündəmə gəlsə də, bu da öz bəhrəsini vermədi. Burada isə yenə də əsas iddiaçı ermənilər və ermənipərəst qüvvələr olub.

***İradə SARIYEVA***

**"Görkəmli idmançılara müraciət edərək onları bu işə dəvət edirəm. Bizim mətbuat orqanları gərək bu sahədəki fəaliyyətini gücləndirsinlər. Düzdür, bizim bəzi televiziya kanallarında aerobika, başqa fiziki fəallıqla bağlı verilişlər var".**

# İdmanın kütləviləşdirilməsində bütün potensiallardan istifadə olunurmu - Prezident hər kəsin borcunu xatırlatdı

***Yusif Babanlı:** "Dövlət bu məsələdə üzərinə düşən nə varsa, onu edir"*



Bunu Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev dekabrın 25-də Milli Olimpiya Komitəsində 2019-cu ilin idman yekunlarına həsr olunan mərasimdə çıxışı zamanı bildirib.

Ölkə başçısının sözlərinə görə, idman kütləvi xarakter almalıdır: "Bu verilişlərdə vətəndaşlara göstərilir ki, idmanın hansı növünü, hansı hərəkətləri ev şəraitində edə bilər. Amma hesab edirəm ki, bu, kifayət deyil. İdman kütləvi xarakter almalıdır. Ona görə yox ki, biz daha çox medallar qazanmaq əzmindəyik, - halbuki, bu da vacibdir, - ona görə ki, bizim millətimiz sağlam olsun, xəstələnməsin. İdmanla məşğul olan insanlar, buradakı idmançılar bunu öz həyatlarında görürlər. Baxmayaraq ki, iş qrafikim çox gərgindir, mən idmanla müntəzəm, fasiləsiz məşğul oluram. Bəlkə Azərbaycanda məndən çox işləyən adam yoxdur, ancaq buna baxmayaraq, vaxt tapıb idmanla müntəzəm məşğul oluram və bunun xeyrini görürəm. Ona görə mənim tövsiyəm budur".

Prezident onu da qeyd edib ki, böyük şəhərlərdə idman komplekslərimiz var, ancaq kənd yerində bu yoxdur: "Bəzi ucqar kəndlər var. Ona görə kənd idmanının inkişafı üçün xüsusi proqram tərtib edilməlidir, buna diqqət verilməlidir. Rayon idman yarışları keçirilsin. Bu həm idmanın inkişafına xeyir verər, həm də idmanın kütləviliyini təmin edər".

Görünən odur ki, idmanın kütləviləşməsi üçün bütün imkanlar səfərbər edilməlidir. Bu işin təkcə dövlətin üzərində olması yetərli deyil. Ölkədəki digər təsisatlar da idmanın kütləviləşməsinə öz töhfəsini verməlidir. Bütün bu deyilənlərin fonunda maraqlıdır, ölkədə idmanın kütləviləşdirilməsində bütün potensiallardan istifadə edilirmi?

Məsələyə münasibət bildirən Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının idman işləri üzrə prorektoru, professor Yusif Babanlının fikrincə, dövlət bu məsələdə üzərinə düşən nə varsa onu edir: "Bu gün dövlət səviyyəsində idmana göstərilən diqqət və qayğı göz qabağındadır. Dövlətin qayğısı sayəsində Azərbaycanın hər bir regionunda olimpiya kompleksləri tikilib. Vətəndaşlar həmin komplekslərin imkanlarından istifadə edirlər. Olimpiya komplekslərinin gənclərin xidmətinə verilməsinin özü Azərbaycanda idmanla bağlı kütləviliyin artırılmasına dövlətin verdiyi dəstəkdir.

*"Sözügedən sahələrdə fəallıq artarsa, o zaman ölkədə idmanın kütləviliyi bir qədər də artacaq"*

Dövlətin yaratdığı şəraitin nəticəsidir ki, idman sahəsində uğur qazanan idmançıların sayı artır. Cənab Prezident Olimpiya Komitəsinə rəhbər seçiləndən sonra ölkədə idmana olan maraq artdı".

Y.Babanlının hesab edir ki, idmanın kütləviləşməsində media, QHT-lər və digər təsisatlar öz imkanlarından tam istifadə etməlidirlər: "Hesab edirəm ki, bu sahələrdə müəyyən görülməsi işlər var. Xüsusən də media idmanın kütləviləşməsi üçün öz imkanlarını daha da artırmalıdır. İdman səhəsində elə mütəxəssislər var ki, onlara şərait yaradılmalıdır. Fikrimcə, bu sahədə kompleks işlərin görülməsi idmanın kütləviləşməsinə öz töhfəsini verə bilər. Bir neçə adamla kifayətlənmək olmaz. Tanınmış şəxslər də bununla bağlı çağırışlar etməli, idmanın nə qədər insan sağlamlığı üçün önəmli olduğunu vurğulamalıdırlar. Hesab edirəm ki, hələlik bütün bunlardan idmanın kütləviləşdirilməsində tam istifadə edilmir. Ancaq sözügedən sahələrdə fəallıq artarsa, o zaman ölkədə idmanın kütləviliyi bir qədər də artacaq".

***Vidadi ORDAHALLI***

**Dekabrın 23-də keçirilən bələdiyyə seçkisində qalib gələn qadınların sayı 5882 nəfər təşkil edib. Mərkəzi Seçki Komissiyasının (MSK) yaydığı məlumata əsasən, bu-ilki bələdiyyə seçkisində seçilən qadınların sayı ümmi qalib gələn namizədlərin 38,81%-ni təşkil edib.**

# Qadınlar Azərbaycanın seçkili hakimiyyət orqanlarını sürətlə ələ keçirir...

***Fatimə Hacıbəyli:** "Artıq Azərbaycan qadını dünya səviyyəsində təmsil oluna biləcək intellekt və savad həddinə yüksəlib"*



Seçilən kişilərin sayı isə 9272 nəfərdir. Əvvəlki seçkilərlə müqayisədə bu, Azərbaycan tarixində ilk belə göstəricidir.

Son illər qadınların cəmiyyətdə sosial, siyasi, mədəni və digər sahələrdə təmsilçiliyinin artırılması məqsədilə dövlətin uğurlu siyasəti həyata keçirilir. Məlumat üçün bildirək ki, 2004-cü ildə keçirilən bələdiyyə seçkilərində qadınlar 4 faiz təşkil edirdisə, 2009-cu ildə 26.7 faiz təşkil edirdi. 2014-cü ildə isə 35 faiz seçilmişdi. Azərbaycan tarixində ilk dəfədir seçkili orqanlarda qadınların təmsilçiliyi 39 faizə qədər yüksəlib.

"Vəfa" Sosial-İctimai Birliyinin sədri Fatimə Hacıbəyli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Azərbaycan qadınlarının seçkilərdə aktiv iştirakı üçün heç bir hüquqi maneə yoxdur. Maneələr yalnız stereotiplər və qadınların passivliyidir. Sevindirici haldır ki, Azərbaycan qadınları artıq həmin stereotiplərə qalib gəlib, seçkilərdə aktiv şəkildə iştirak edirlər: "Bu il keçirilən bələdiyyə seçkilərinə namizəd kimi qatılan və qalib olan xanımların sayı ötən seçki ilə müqayisədə artıb".

Birlik sədri onu da vurğuladı ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanı nümunə seçən qadınların siyasi həyatda rolunun artması, bütövlükdə, cəmiyyətdəki ab-havaya çox müsbət təsir göstərir: "Çünki qadınların siyasi proseslərdə iştirakı adətən cəmiyyəti aqressivlikdən uzaqlaşdırır, ictimai-siyasi həyata pozitiv ab-hava gətirir. Bütün dünyada qəbul olunub ki, qadınların məsələlərə daha həssas yanaşması qərarların qəbuluna da müsbət təsirini göstərir. Bu baxımdan parlament seçkiləri ərəfəsində bu nəticəyə

*"Bu il keçirilən bələdiyyə seçkilərinə namizəd kimi qatılan və qalib olan xanımların sayı ötən seçki ilə müqayisədə artıb"*

görə Azərbaycan qadınlarını alqışlayıram. Ümid edirəm ki, qadınlarımız parlament seçkilərində bu nəticəni təkrarlayacaqlar".

Həmsöhbətimiz onu da əlavə etdi ki, cəmiyyət inkişaf etdikcə, qadınların fəallığının artması müşahidə olunur. Artıq Azərbaycan qadını dünya səviyyəsində təmsil oluna biləcək intellekt və savad həddinə yüksəlib.

Bununla yanaşı, qadınların cəmiyyətin müxtəlif sahələrində təmsilçiliyi kifayət qədər yüksək deyil. Sosial həyatın bütün sahələrində ağırlığı çiyinlərində daşıyan qadınları ictimai-siyasi proseslərə cəlb etməklə demokratiya quruculuğu prosesini sürətləndirmək olar. Bələdiyyə seçkiləri buna böyük bir fürsət verdi. Tədqiqatlardan məlum olur ki, qadınların böyük hissəsinin bələdiyyə seçkisi haqda məlumatları məhduddur.

***Günel CƏLİLOVA***

# 46 saylı məktəbin direktoru Sevinc Budaqova İsrail dövlətinin ordeni ilə təltif edildi

*"46 saylı məktəb tolerantlığın və multikulturalizmin bariz nümunəsidir"*

**Dekabrın 26-da Nəsimi rayonundakı Ağabəy Novruzbəyli adına 46 saylı tam orta məktəbdə yəhudilərin milli (dini) bayramı Xanukaya və Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr edilən tədbir keçirildi.**

Tədbiri ravvin və məktəbin yəhudi bölümünün koordinatoru Zamir İsayev açaraq tədbir iştirakçılarını salamladı. Sonra isə Azərbaycan və İsrailin dövlət himnləri səsləndirildi.

Qeyd edildi ki, dünya yəhudiləri Xanuka bayramını uzun əsrlərdir qeyd edir və Xanuka bayramı İsrailin əsas dini bayramlarından biri hesab olunur. Adətən noyabr-dekabr aylarında qeyd olunan bayram yəhudi təqviminin Kiselev ayının 25-ci günündə başlayır və 8 gün davam edir.

Məlumata görə, bayramın yaranma tarixi isə çox qədimdir: E.ə 165-ci ildə yunan ağalığına qarşı Makkaveylər süləlsinin başçılığı altında üsyan qaldıran yəhudilər 3 il müddətində bütün torpaqlardan düşməni qovurlar. Üsyanın sonunda yenicə azad olmuş Qüdsdəki müqəddəs məbədə daxil olan yəhudilər bu məkanı işıqlı saxlamaq üçün yalnız birgünlük yağ ehiyatı aşkar edirlər. Lakin möcüzəli şəkildə qızıl şam 8 gün ərzində məbədə işıq salır. Bu müddətdə isə əhali yeni yağ ehiyatı toplayır.

İşıq (Xanuka) qış bayramında yəhudilər eramızdan əvvəl ikinci əsrdə yunanlar üzərində qələbələrini və Qüds məbədinin təmizlənməsini yada salırlar. Xanukanın səkkiz gününün hər birində xüsusi səkkiz şamlı qəndildə (menore) növbəti şam yandırılır. Dini himnlər oxunur, uşaqlar şən oyunlar oynayırlar (ilk növbədə fırlanğıc-dreydl oyunu). Bu günlərdə şən ziyafətlər təşkil edilir, hədiyyələr mübadiləsi aparılır.

Azərbaycanda da bu bayramın xüsusilə qeyd olunduğu vurğulandı. Ölkənin yəhudilər yaşayan bölgələrində, əsasən Qubada Xanuka bayramı təntənəli şəkildə keçirilir.

Tədbirin bədii hissəsində məktəbin yəhudi sektorunun şagirdləri ingilis, rus və digər dillərdə mahnılar oxudular, şeirlər dedilər, monoloqlar söylədilər, həmçinin də gözəl rəqs etdilər, müxtəlif musiqi alətlərində ifalar təqdim olundu.

Tədbirdə İsrailin Azərbaycana yeni təyin edilən fövqəladə və səlahiyyətli səfiri Corc Dik, konsul Xaim Fixman, Diaspor Komitəsinin rəsmisi Vüqar Məmmədov, Təhsil Nazirliyinin rəsmisi Nicat Məmmədli, Bakı Şəhər Baş Təhsil İdarəsinin sektor müdiri Arzu Tairquliyeva, Nəsimi Rayon İcra Hakimiyyəti başçısının müavini Gülarə Verdiyeva və başqaları iştirak edirdilər.

Tədbirdə İsrailin yeni təyin edilmiş səfiri C.Dik çıxış edərək Azərbaycan və İsrail arasındakı əlaqələrdən danışdı. Qeyd etdi ki, səfir təyin edildikdən sonra ilk səfərini yəhudi milliyyətindən olan uşaqların təhsil aldığı 46 saylı tam orta məktəbə edib və bundan çox məmnundur. Səfir bildirdi ki, Azərbaycanda mövcud olan tolerantlıq və multikulturalizm mühiti burada xalqların qardaşlıq, dostluq şəraitində yaşamasına böyük imkanlar açıb. Burada yəhudilərin də öz dini və milli bayramlarını yaşatdıqlarını qeyd edən səfir ənənələrin qorunmasına, gələcək nəsillərə daşınmasına görə Azərbaycana minnətdarlığını bildirdi.






Sonra bildirildi ki, A.Novruzbəyli adına 46 saylı tam orta məktəbin direktoru Sevinc Budaqova İsrail dövləti tərəfindən "Yerusəlim sülh şəhəridir" ordeni ilə təltif edilib. Sevinc xanımın medala göstərdiyi uğurlu fəaliyyət nəticəsində layiq görüldüyünü deyən konsul Xaim Fixman medalı S.Budaqovaya təqdim etdi. Tədbirdə iştirak etdiklərinə görə səfirə və bütün qonaqlara təşəkkür edən S.Budaqova çıxışında bildirdi ki, rəhbərlik etdiyi məktəb Azərbaycanda mövcud olan multikulturalizm və tolerantlığın əsl nümunəsidir.

Belə nüfuzlu mükafata layiq görüldüyü üçün İsrail dövlətinə təşəkkürünü bildirən S.Budaqova qeyd etdi ki, əldə etdiyi bütün uğurları rəhbərlik etdiyi kollektivlə birgə qazanıb. "Cənab səfirin ilk səfərini 46 saylı tam orta məktəbə etməsi çox mühüm hadisədir. Mən buna görə ona öz təşəkkürmü bildirirəm. Bu gün Azərbaycanda mövcud olan multikulturalizm və tolerantlıq bütün dünyaya örnək olaraq göstərilir. Ölkəmiz buna Azərbaycan Prezidenti İlham Əliyevin və ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın həyata keçirdiyi uğurlu siyasət nəticəsində nail olub. 46 saylı məktəb tolerantlığın və multikulturalizmin bariz nümunəsidir".

S.Budaqova onu da qeyd etdi ki, Xanuka yəhudilərin azadlıq, birlikbərabərlik bayramıdır.

Tədbirin sonunda Xanuka bayramının simvolu olan şamlar yandırıldı və dualar oxundu.

***İradə SARIYEVA***





# İbtidai hay sürüsünün etno-morfogenezisində Yuxarı Nil çayı və Tana gölü amili...

**(XII məqalə)**



**"1915-ci ilə aid edilən "erməni soyqırımı" ilə bağlı çoxsaylı arxiv sənədləri və materialları birmənalı şəkildə erməni tərəfinin iddialarını inkar edir, eləcə də tam əks mənzərəni göstərir. Çoxlu sayda materiallar göstərib ki, ilk növbədə erməni silahlı quldur dəstələri erməni diasporunun və millətçilərinin dəstəyi ilə XX əsrin əvvəllərində Osmanlı Türkiyəsinin türk-müsəlman əhalisinə qarşı görünməmiş qətlamlar törədiblər.»**

*İstanbul Universitetinin əməkdaşı, tarix elmləri doktoru Mehmet Perinçek Boranın (1978) 2011-ci ildə Moskva şəhərində çap edilmiş "Erməni məsələsi Rusiya Dövlət Arxivlərinin 120 sənədində" kitabından (bu cür sənədlər I Dünya müharibəsində Osmanlı Türkiyəsi ilə düşmən cəbhəsində olan çar Rusiyasının dövlət arxivlərində saxlanılır).*

Protohay ibtidai insan sürüsünün e.ə. VI-IV minilliklərdə Şərqi Afrika hövzəsinin landşaft strukturları boyunca hərəkər istiqamətləri Omo çayı vadisi, o qədər də böyük olmayan Abaya və Çamo göllərinin, müasir "Bale dağları Milli Parkı"nın ərazisi, Ququ-Axmar dağlarının meşə-mağaraları ilə yanaşı həm də qitənin məşhur su hövzəsi olan Tana-Hayk gölünün sahilləri də olub. Adı çəkilən bu ibtidai canlı varlığın ilkin genetik qan daşıyıcıları kimi protohayların etno-morfogenezisində Şərqi Afrika təbii-coğrafi şəraitinin təsirinin nəzərə alınması amilini aşağıdakı elmi-nəzəri mülahizə ilə qiymətləndirmək olar:

"Qəbilə-tayfa toplumunun özünüdərk və özünüifadə mərhələsində ekzogen-təbii amillərin təsiri, onların icma halında coğrafi məkan üzrə tarixi şəraitdə birləşməsində həlledici rol oynayır". (L.N.Qumilyov (1912-1992, "Etnos və landşaft" əsərindən).

Bu baxımdan e.ə. VI-IV minilliklərdə Şərqi Afrika mühitində hay sürüsünün özünüifadə və özünücəmləmə instinktinin təşəkkülündə, icma halında toparlanmasında ilkin həlledici ekzogen amil kimi qeyd edilən landşaft strukturlarının təsirini aşağıdakı kimi təsnif etmək olar:

-Şərqi Afrika təbii-coğrafi landşaft və iqlim müxtəlifliyinin kəskin kontrastlığı protohay sürüsünün şüurunda ekstremal şəraitə uyğunlaşma instinktini gücləndirib. Nəticədə bu canlılar toplusu rütubətli meşə mağaralarında, gursulu çayların və sərtçılpaq qayalıqların vadilərində, tropik göllərə aid ada və yarımadalarında, səhra və yarımsəhra landşaftında... fasilələrlə məskunlaşmaqla həm də şüur-həyat tərzi dəyişikliyinə, yeni əmək vərdişlərinin əxz etmələrinə (əkinçilikdə, heyvandarlıqda, metal-ağac emalı və işlənilməsində, əmək alətləri və bəzək əşyalarının hazırlanmasında...), davamlı mistik-təriqətlərə məxsus qəbilə-tayfa icmalarına assimlyasiyaya (ənənəvi mərasimlərin keçirilməsində...) nail olublar (minilliklər boyunca);

-Şərqi Afrikada əsasən Həbəşistan (Omo çayı hövzəsi) və Yuxarı Misir (Mavi Nil çayı hövzəsi) ərazilərindən başqa Uqanda, Namibiya, Somali, Svazilend, Eritreya bölgələrinin protohay (hay) ibtidai insan sürülərinin etno-morfogenetik qan yaddaşına təsir edən mühüm oroqrafik relyef-iqlim vahidlərinin miqrasiya məntəqələri Homerin, Heredotun, Ptolomeyin, Strabonun... əsərlərində təsvir edilən ərazi vahidlərinə uyğun gəlir;

-protohay (hay) qəbilətayfa üzvlərinin (icmasının) miqrasiya ocaqlarında məskunlaşmaları (təbii şəraitdən asılı olaraq) instinkt olaraq sonrakı dövrlərdə həmin ərazilərə məxsus tarixi yer adlarının (toponimlərin) mənimsənilməsi və ya onlardan istifadə ilə nəticələnib. Mavi Nil çayının mənbəyində Tana-Hayk gölünün cənubundakı Debe-Məryəm adasında Müqəddəs Tadevos (Faddey) kilsəsi protohay sürüsünün məskunlaşdığı və mistik təlqin-mərasim təlimlərinə yiyələndikləri məkan kimi indi də əhəmiyyətini itirməyib. İbtidai hay sürüsünün bu baxımdan miqrasiya ocaqlarından biri də Bale dağlıq sahəsindəki Milli Park yaxınlığında, Abaya gölünün şimalındakı müasir Ayasa şəhəri və Tana-Hayk gölünün ətrafındakı Arma ölkəsinin də ərazisi olub.

İbtidai hay toplumunun instinkt şüur-düşüncə yaddaşının formalaşması mərhələlərində Tana-Hayk gölü hövzəsinin ada və yarımadaları, Ququ-Axmar dağlarının mağaraları, Avaş çayının vadiləri... landşaft vahidlərinin təsiri böyük olub - e.ə. VI-IV minilliklərdə.

Ona görə də irəəli sürülən mülahizələrin Tana-Hayk gölünün təsir amillərinin təhlili və tarixi-coğrafi şəraiti baxımından qiymətləndirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Protohay sürüsünün Tana-Hayk gölü hövzəsində məskunlaşma tarixində daxili və xarici yerdəyişmə bir sıra tarixi-coğrafi, hərbi-siyasi, iqtisadi-sosial amillərlə bağlı olub. Kütlə-toplum halında bu coğrafi məkanda paylanması Həbəş, Misir kahinlərinin-cadugərlərinin xidmətçiləri kimi onlardan istifadəyə əsas verib. Təsadüfi deyil ki, 1169-cu ildə Misir, Suriya, Fələstin, Liviya sultanı Səlaheddin Yusif ibn Əyyubun (1137-1193) hökmü ilə Misirdən qovulmuş ermənilərin bir hissəsi Aralıq dənizinin ada və yarımadalarında (Bizans və Roma dövlətləri hüdudlarında), bir hissəsi də Həbəş, Sudan, Somali ərazilərində (Qırmızı dənizin qərb sahillərində) - əski tarixi mağara-vadi yurdlarına üz tutublar. Təsadüfi deyil ki, bu barədə rus tarixçisi, "Qədim Misir və Nubiya tarixi" məktəbinin yaradıcısı, Rusiya EA-nın akademiki B.A.Turayevin (1868-1920) "Misir qeydləri" (1904), "Erməni-həbəş əlaqələrinə dair" (1911-1912)... tədqiqat məzmunlu əsərlərində ətraflı tarixi-xronoloji məlumatları verib.

Müqəddəs Tadevos (Faddey) kilsəsinin əsası Amda Sionun hakimiyyəti illərində (1314-1344) qoyulub, amma nədənsə XIV-XV əsrlərə aid (Tana-Hayk gölü ilə bağlı) mənbələrdə bu məbədlə bağlı məlumatlara rast gəlinməyib. Lakin XVII əsrin əvvəllərində Dabra-Libanos monastrlar birliyində bu ad xatırlanır. Dabra-Məryəm Koxayn vilayətinin (hazırda Cənubi Eritreya ərazisi) həm də Enda-Abuna-Absadi adlanır, 1374-cü ildə müqəddəs Absadi (evstafion konqresatisinin başçısı) tərəfindən əsası qoyulub. Çar David tərəfindən kilsə məclisi çağrılıb 1400-cü ilin aprel ayında, nəticədə kilsə evstafion doktrina ilə ifadə edilib. Bir neçə ildən sonra müəyyən güzəştlər edilib. Zora Yakobun (1434-1468) hakimiyyəti illərində bu kilsəyə torpaq sahələri bağışlanılıb. Evstafian dini birliyi hayların sıx məskunlaşdığı Tare şəhərində təşəkkül tapmışdır.

Bu dini xəttin təşəkkül tapdığı məkanlardan biri də Həbəşistanda Tiqr rayonu hesab edilir.

Debre-Abbay kilsəsi də Mərkəzi Həbəşistanda göllər hövzəsində yerləşməklə protohay sürüsünün miqrasiya məntəqələri üzərində yerləşən, onların xidmətində durduqları kahinlərin-cadugərlərin fəaliyyət göstərdiyi məkanlar üzrə ən çox mərasimlərin keçirildiyi ərazilərdən biridir. Belə məkanlar içərisində Əddis-Əbəbə şəhərindən cənub-şərqdə 400-500 km-lik məsafədə yerləşən Nazret şəhəri də seçilmiş, hay sürüsünün Axmar dağlıq hövzəsinə və Afar vilayətinə hərəkət yolu üzərində yerləşməsi ilə fərqlənib.

Hay sürüsünün Həbəş-Misir kahinlərinin, cadugərlərinin təsərrüfatlarında qul əməyi ilə məşğul olmaları, mərasim-ayinlərin icralarına qatılmaları xislətlərinə uyğun olaraq müəyyən mövqe qazanmalarına səbəb olub. Nəticədə bölgənin bir çox yerlərində hay sürüsünün, hay icmasının pozulmaz izləri indiyədək qalmaqdadır. Adicə hazırda ermənilərin milli rəmzi qəbul etdikləri "qartal" totemi e.ə. V-IV minilliklərdə Yuxarı Misirdə Xorom Allahına sitayişin ifadəsidir. Erməni kilsəsində rəmzi təsvirlər sırasında xüsusi yer tutan Günəş rəsmi də həmin minilliklərin sitayiş elementlərini əks etdirir. Yada salmaq olar ki, ermənilərin coşqu ilə tərənnüm etdiyi III Tiqranın sitayiş "ocağı" elə Günəş olub.

Yuxarıda adı çəkilən rus tədqiqatçısı B.A.Turayevin elmi mülahizəsinə görə ("Vatikanın həbəş əlyazmalarına dair qeydlər" məqaləsi, 1908) Amxara vilayətində (Əddis-Əbəbə şəhərinin şimalında) Müqəddəs Stefan məbədinin monaxları xayklar (hayklar, haylar, protohaylar) olub. Həmin vilayətin cənubi Vollo bölgəsindəki"erməni adası"Dessedən 20 km şimalda Hayk şəhəri və Hayk gölü (11 dərəcə şimal en dairəsi və 39 dərəcə şərq uzunluğunda) yerləşir. Bu şəhərdə artıq VII-VIII əsrlərdə adı çəkilən Müq. Stefan kilsəsi olub və şəhər müharibələr nəticəsində 1531-ci ildə dağıdılıb. "Hayk" limnonimi (göl toponimi) amxar dilində "göl" mənasını verir. Müasir "hay", "hayk", "xay" adlarının filoloji-morfo struktur mənalarında, tarixi-coğrafi məkan yükündə qədim Şərqi Afrika landşaft-struktur elementlərindən və təbii məskunlaşma ərazilərindən törəmə toponimlər kimi yer tutması, müasir Ermənistanı və erməni icmasını ifadə etməsi məhz onların tarixi-coğrafi keçmişləri ilə bağlıdır.

***Qismət YUNUSOĞLU***
***Bakı Dövlət Universitetinin müəllimi***

# Sosial evlərin məsələsini dolaşdıran dələduz hakerlər qrupu - yüzlərlə mənzilin real vətəndaşlara çatmadığı iddiası var

**Dekabrın 25-də Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) Yasamal Yaşayış Kompleksində qalan 248 mənzilin satışını həyata keçirib. Məlumat üçün bildirək ki, agentlik fəaliyyətə başladığı ilk gündən ölkə vətəndaşlarının mənzil-məişət şəraitinin yaxşılaşdırılması, güzəştli mənzillərlə təmin olunması məqsədilə qarşıya qoyulan vəzifələrin icrasını davam etdirir.**



***Rəşad Həsənov:** "MİDA-da evlərin qısa müddətdə satışını həyata keçirən xüsusi hakerlər var"*

Xatırladaq ki, MİDA-nın ilk layihəsi olan Yasamal Yaşayış Kompleksində 16.10.2019 və 18.10.2019-cu il tarixlərində "Elektron hökumət" portalı (www.e-gov.az) üzərindən "Güzəştli mənzil" sistemi vasitəsilə seçilmiş 570 mənzildən 568-nin alqı-satqısı uğurla başa çatdırılıb. Həmin mənzillərdən 17-si 18 oktyabr 2019-cu il tarixində "Güzəştli mənzil" sistemi vasitəsilə gözləmə qaydasında mənzil seçimi etmiş şəxslər tərəfindən əldə edilib. Mənzilə sahib olmuş vətəndaşlardan 146-sı mənzili öz vəsaiti hesabına, 422-si isə güzəştli ipoteka krediti hesabına əldə edib.

Ümumilikdə, bu günədək keçirilən 5 satışın nəticəsində 1 385 ailə MİDA-nın ilk layihəsi - Yasamal Yaşayış Kompleksində güzəştli mənzillə sahib olub.

Bununla yanaşı, satışla əlaqədar MİDA-nın sosial şəbəkə hesablarında vətəndaşlar narazılıqlarını bildirərək, sistemin gec açılmasını, mənzil əldə edə bilmədiklərini və s. qeyd ediblər. İddia olunur ki, sistemin gec açılması bəzi hakerlər üçün fürsət yaradıb. Onlar müəyyən məbləğ qarşılığında, xüsusi proqram vasitəsilə həmin sistemə qısa müddətdə daxil olub, evin alışını həyata keçirirlər. Qeyd etdiyimiz kimi, bu işlə xüsusi haker qrupu məşğul olur.

Məsələ ilə bağlı fikir bildirən iqtisadçı-ekspert Rəşad Həsənov qeyd etdi ki, Yasamal Yaşayış Kompleksindəki son mənzillərin onlayn satışı sürətli olub və az-çox ümidi olan iştirakçılarda da çox böyük xəyal qırıqlığı yaradıb: "Artıq əhalinin böyük əksəriyyətində MİDA-nın fəaliyyəti ilə əlaqədar ciddi şübhələr var. MİDA-da evlərin qısa müddətdə satışını həyata keçirən xüsusi hakerlər var. Onlar bu işi müəyyən vəsait qarşılığında edirlər. Məlumatlara görə, təxminən bu xidmətlərin qiyməti 500 manatdan 7 000

*"Xüsusi bazar formalaşıb və hətta bir, iki və üçotaqlı mənzillər üçün də differensial qiymətlər yaranmaqdadır"*

manata qədər yüksəlir. Xüsusi bazar formalaşıb və hətta bir, iki və üçotaqlı mənzillər üçün də differensial qiymətlər yaranmaqdadır. Məlumatlardan o da məlum olur ki, xüsusi robot proqramlar hazırlanmış CAPTCHA-nın tətbiqi belə bu proqramların qarşısını almır. Son iki satış bunun bariz nümunəsidir".

Həmsöhbətimiz hesab edir ki, bu sahədə yaşanan problemləri həll etmək üçün MİDA-nın mənzil satışı mexanizminə dəyişiklik olunmalıdır: "1. Mənzil sahibi olan, yaxud son 24 ayda adına olan mənzili satan vətəndaşın güzəştli mənzil mexanizmindən istifadə hüququ olmamalıdır. Hazırda bəzi adamlara MİDA 5-ci, 6-cı ev sahibi olmaq xoşbəxtliyi nəsib edib. 2. Mövcud satış mexanizmi aşağıdakılardan biri ilə əvəz edilə bilər. 2.1. Variantlardan biri kimi lotereya üsulu gözdən keçirilə bilər. Belə ki, satışdan əvvəl hər kəsin şəxsi kabinetinə konkret kodlar göndərilir. Lakin qalib nömrələr canlı yayımın təşkili şərtilə satışa qatılmaq hüququ olan vətəndaşlar tərəfindən müəyyən edilir. 2.2. Bu satışların təşkili Dövlət İmtahan Mərkəzinin tətbiq etdiyi metodla təmin edilə bilər. Bu hüquqlardan yararlanmaq istəyən vətəndaşlar xüsusi zallarda toplana bilərlər.

Bu zaman kənar şəxslərin zallara daxil olmaq imkanı olmayacaq. Proqram onlayn olsa belə, yalnız xüsusi məkanlarda aktiv edilə bilər. Bununla da insanlara ədalətli seçim imkanı təmin etmək olar. Satışların qeyri-iş günlərinə salınması və bir neçə yerdə təşkili iştirakın əlçatanlığını təmin edə bilər".

İqtisadçının fikrincə, onun irəli sürdüyü təkliflər nəzərə alınarsa, hakerlərin yaratdığı alternativ bazar sıradan çıxarılacaq.

**Günel CƏLİLOVA**

# Bakı restoranlarında 2 nəfərlik Yeni il süfrəsi 80, hətta 450 manata, necədir...

**Yeni ilin gəlməyinə artıq sayılı günlər qalıb. Bütün dünya bayramı xüsusi təmtəraqla qarşılamağa hazırlaşır. Azərbaycanda isə bayram təkcə Yeni ilin gəlməsi ilə bitmir, 31 dekabr həm də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Yeni həmin gün xalqımız üçün ikiqat bayramdır. Təbii olaraq, həmin gün hər kəs öz büdcəsinə görə hərəkət edəcək.**



***Bəxtiyar Fətullayev:** "Yeni il proqramlarının qiyməti bir sıra amillərdən asılıdır"*

***Pərviz Heydərov:** "Bayramla bağlı restoran şəbəkələrində və digər xidmət obyektlərində qiymətlərin yüksək olması..."*

Adətən insanların əksər hissəsi bayramı öz evində, bir qismi xaricdə, digərləri isə restoranlarda keçirməyə üstünlük verir, paytaxtın çoxsaylı əyləncə və istirahət mərkəzinə üz tuturlar. Bakıda fəaliyyət göstərən restoranlar da bir-birilə rəqabətə girərək, daha yaxşı proqram hazırlamaq və insanları məkanlarına cəlb etmək üçün "dəridən-qabıqdan" çıxırlar. Bu da restoranlarda qiymətlərə təsir edir. Yeni il proqramı təklif edən bir neçə restoranla müştəri kimi əlaqə saxlayıb, qiymətləri və proqrama nələrin daxil olduğunu öyrəndik.

Restoranların əksəriyyətində eyni zalda bir neçə qiymət təklif edilir. Qiymət arasındakı fərqin səbəbi müştərinin səhnəyə yaxın olması ilə əlaqədardır. Belə ki, şou-proqramı daha yaxından izləmək istəyənlər daha çox pul xərcləməlidirlər. Qiymətlər 80-450 manat arasında dəyişir.

Onu da qeyd edək ki, restoranlar arasında qiymət fərqi olmasının səbəblərindən biri də bayram gecəsi səhnəyə çıxacaq müğənnilərlə bağlıdır. Həmin müğənni tanınmışdırsa, şou-proqramı yaxından izləmək istəyənlər 450 manatından keçməli olacaq. 450 manata 2 nəfər restoranda Yeni ili qarşılaya bilər. Nisbətən orta səviyyəli müğənnilərin səhnə aldığı restoranlarda qiymət 80-200 manat arasında dəyişir.

Ancaq ekspertlər isə bildirirlər ki, restoranların bayram gecəsi üçün təklif etdiyi qiymət qonşu ölkələrlə müqayisidə bahadır. Bakı restoranlarında bir gecə üçün 300-450 manat xərcləmək yerinə eyni məbləğlə Gürcüstan, Rusiyada Yeni ili qarşılamaq olar.

Paytaxt restoranlarından birində çalışan Bəxtiyar Fətullayev bizimlə söhbətində bildirdi ki, Yeni il proqramlarının qiyməti bir sıra amillərdən asılıdır: "Bu, ilk növbədə, dəvət olunan müğənnilərdən asılıdır. Eyni zamanda, veriləcək yeməklərin, axşam xidmət göstərəcək işçilərin xərci də hesablanır. Və bütün bunlar nəzərə alınaraq, qiymətlər müəyyənləşdirilir".

İqtisadçı-ekspert Pərviz Heydərov qeyd etdi ki, ölkənin istehlak bazarında qiymət artımı mövcuddur: "Bayramla bağlı restoran şəbəkələrində və digər xidmət obyektlərində qiymətlərin yüksək olması ötən illər ərzində müşahidə edilib. İndiki qiymətlərlə müqayisə etməli olsaq, əvvəlki illərlə elə də ciddi fərq müşahidə etmərik. Yəni hər il bu belə qeydə alınıb. Həm tələbin yenə də, əvvəlki illərdə olduğu kimi, kifayət qədər yüksək olması, həm də təklifin əvvəlki illərlə müqayisədə bahalaşması ilə əlaqədardır".

**Günel CƏLİLOVA**



# Saxta araqlar istehsal etməklə insan ölümünə səbəb olmuş şəxslər tutuldu, restoranlar isə...

*Səhiyyə Nazirliyi, Qida Təhlükəsizliyi Agentliyi və Baş Prokurorluğun Mətbuat xidmətləri birgə məlumat yaydı*

**Bakı şəhər sakinləri Sərxan Bayramovun dekabrın 23-də, Mustafa Mustafayevin isə dekabrın 24-də "kəskin peroral metil spirti ilə ağır dərəcədə zəhərlənmə" diaqnozu ilə Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinə daxil olaraq vəfat etmələri, Cəlal Həmzəyev, Sənan Teymurov, Elvin Teymurov və Nurlan Nəbiyevin isə "alkoqol zəhərlənməsi" diaqnozu ilə xəstəxanaya yerləşdirilmələri faktları ilə bağlı Cinayət Məcəlləsinin 200.4 (istehlakçıları aldatma və ya pis keyfiyyətli məhsul istehsal etmə və satma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda), 213-1.1(aksiz markası ilə markalanmalı olan məhsulları (malları) belə marka olmadan xeyli miqdarda satma, satış məqsədi ilə saxlama, istehsal binasının hüdudlarından kənara çıxarma və ya idxal etmə) və 314.2-ci (səhlənkarlıq, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda və ya digər ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanmaqla iş üzrə istintaqın aparılması Bakı şəhər prokurorluğunun İstintaq idarəsinə tapşırılıb.**

Aparılmış istintaqla zəhərlənərək vəfat etmiş Sərxan Bayramovun, zəhərlənərək xəsarət almış Cəlal Həmzəyev, Sənan Teymurov, Elvin Teymurov və Nurlan Nəbiyevin paytaxtın Nərimanov rayonu, Koroğlu Rəhimov küçəsində yerləşən "Baku Voice Rooms", Nəsimi rayonu, Tbilisi prospektində yerləşən "Baku City" restoranlarında, vəfat etmiş Mustafa Mustafayevin isə Binəqədi rayonu, Ə.Rəcəbli küçəsində yerləşən "Everest" restoranında qəbul etdiyi və zəhərlənmələrinə səbəb olmuş "Chivas Regal 12" əmtəə nişanlı spirtli içkilərini "Baku City" restoranının müdiri Füzuli Alıyev və sonuncunun tanışlığı ilə "Everest" restoranına Xəyal Cəfərovun ucuz qiymətə satmasına əsaslı şübhələr müəyyən edilib.

İstintaq zamanı Bakı şəhər Baş Polis İdarəsi, şəhər prokurorluğunun, eləcə də Qida Təhlükəsizlik Agentliyinin əməkdaşları tərəfindən zərərçəkmiş şəxslərin spirtli içki qəbul etdikləri "Baku Voice Rooms", "Baku City" və "Everest" restoranlarına baxış zamanı qida və içki nümunələri, videomüşahidə kamerasının yaddaş qurğuları, müxtəlif qaimə-fakturalar, eləcə də X.Cəfərovun spirtli içkilər hazırladığı Binəqədi rayonu, Biləcəri qəsəbəsi, Y.Hüseynov küçəsində icarəyə götürdüyü iki mərtəbəli evə baxış zamanı 2 ədəd "Chivas Regal 12" adlı boş viski şüşəsi, 9 ədəd satış üçün nəzərdə tutulmuş qaydada qablaşdırılmış halda "Kremlevskie Kuranti Premium" araqlarının boş şüşələri, 8 ədəd araq və viski spirtli içkilərinin qarışdırılmaqla hazırlanması və sonradan ayrı-ayrı boş şüşələrə doldurulması üçün istifadə edilmiş 5 litr həcmli içərisində araq və viski qalıqları olan plastik qablar, çoxsaylı araq və viski spirtli içki şüşələrinin qapaqları, şüşələrin üzərində vurulan qapaq və etiketlərin bərkidilməsi üçün istifadə edilmiş 4 ədəd hava fen və digər əşyalar aşkar edilərək maddi sübut kimi götürülüb.

Bundan başqa, X.Cəfərovun istehsal etdiyi spirtli içkilərin boş şüşə və qapaqlarını aldığı Səxavəddin Həsənova məxsus Binəqədi rayonu, Azadlıq prospekti 161a ünvanında olan anbara baxış zamanı orada "Chivas Regal 12", "Chivas Regal 18", "Chivas Regal 21", "Jameson", "Grands", "Jack Daniels" adlı və s. viski, "Nemirov", "Ruskiy Standart", "Belyuga", "Grey Gouse", "Minsk", "Qu Quşu", "Region", "Grey Cardinal" adlı və s. araq, "Patron", "Olmega", "Siera", "El Chapo" adlı tekila, "Henessy" və "Remy Martini" konyak və başqa növdən olan 10 min ədəddən artıq spirtli içkilərin öz qutularında, səliqəli şəkildə qapaqları ağızlarına taxılı vəziyyətdə boş şüşələri, həmçinin müxtəlif növ spirtli içkilərin qablaşdırılması üçün nəzərdə tutulmuş qapaqları aşkar olunub.

Götürülmüş içki və qidalardan müvafiq nümunələr Qida Təhlükəsizliyi Agentliyinə təqdim olunub, həmçinin spirtli içkilərin keyfiyyətinin müəyyən edilməsi üçün məhkəmə fiziki-kimyəvi, içkilər üzərindəki aksiz markalarının saxta olub-olmamasının müəyyən edilməsi məqsədi ilə məhkəmə sənədlərin-texniki ekspertizası, eləcə də məhkəmə-tibbi ekspertizaları təyin edilmiş və digər təxirəsalınmaz istintaq hərəkətləri həyata keçirilmişdir.

Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyalarına təqdim olunmuş "Chivas Regal 12" spirtli içki nümunələrinin sınaq nəticələrində yüksək toksiki təsirə malik metil spirtinin həcm payının normadan dəfələrlə yüksək olduğu (76,6%) və bu içkilərin insan həyatı üçün təhlükəli olduğu aşkar olunub.

Cinayət işi üzrə Füzuli Alıyev Cinayət Məcəlləsinin 213-1.1 və 314.2-ci, Xəyal Cəfərov isə həmin məcəllənin 200.4-cü maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların tam və hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin dairəsinin tam müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Zərərçəkmiş şəxslərin vəziyyətləri ağır kimi qiymətləndirilməklə stasionar şəraitdə müalicələri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bu qəbildən olan qanunazidd hallarla üzləşən ölkə vətəndaşları və sahibkarlara müraciət edərək Bakı şəhər prokurorluğunun 498-10-54 nömrəli telefon və ya Qida Təhlükəsizliyi Agentliyinin "1003 - Çağrı mərkəzi"nə məlumat vermələrini xahiş edir.

Eyni zamanda istehlakçılardan xahiş olunur ki, ictimai iaşə, satış və digər məkanlarda qida məhsulları alarkən məhsulun qablaşdırmasına, etiket məlumatlarına diqqət yetirsinlər, qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara uyğun sənədləri tələb etsinlər.

**Qida təhlükəsizliyinə və qida məhsulları istehlakçılarının hüquqlarının pozulmasına yönəlmiş qanun pozuntularının qarşısının alınması istiqamətində bundan sonra da ən ciddi tədbirlər görüləcəkdir.**

№ 232 (4130) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

27 DEKABR 2019-cu il

www.baki-xeber.com

## "Azercell" hesab-fakturanı tam olaraq rəqəmsallaşdırır

*Ölkənin lider mobil operatoru abunəçilərinin faktura hesabı haqqında məlumatı artıq bilavasitə onların elektron ünvanlarına göndərəcək*

**Rəqəmsallaşma istiqamətində apardığı davamlı yeniliklərin tərkib hissəsi kimi ölkəmizdə elektron xidmətlərindən istifadəni daha da genişləndirmək məqsədilə "Azercell Telekom" elektron hesab-faktura sisteminin tətbiqinə başlayır.**

Bildiyimiz kimi, hesab-fakturaların kağızda çap edilməsi ətraf mühitə mənfi təsir göstərməklə özlüyündə məhdud təbii resursların israfı ilə nəticələnir.

Belə olan halda, məlumat mübadiləsinin elektron formada təşkili daha da səmərəli və istifadə baxımından rahat sayılır. Həmçinin, bir çox abunəçinin vaxtilə təqdim etdikləri ünvan məlumatlarının qeyri-dəqiq olması və ya digər səbəblər (abunəçinin başqa ünvana köçməsi, yeni ünvan sisteminin tətbiqi və sair) şirkət tərəfindən ünvana göndərilən hesab-fakturaların alıcıya çatmaması ilə nəticələnə bilirdi.

Artıq abunəçilər "Azercell" Müştəri Xidmətləri mərkəzlərinə müraciət edərək, ödənişsiz əsaslarla elektron poçt ünvanına hesab-fakturanın göndərilməsi xidmətini aktiv edə bilərlər.

Bundan başqa, abunəçilər hesab-fakturalar barədə məlumat əldə etmək üçün digər alternativ imkanlardan da yararlanmaq iqtidarında olacaq. Belə ki, "Kabinetim" mobil tətbiqi və veb versiyası üzərindən abunəçilər nömrənin cari vəziyyəti barədə məlumatları yoxlaya, o cümlədən son üç hesab-faktura ilə tanış ola, müxtəlif əməliyyatlar həyata keçirə bilərlər.

Həm də abunəçilər nömrənin cari vəziyyəti (o cümlədən, hesab-faktura məbləğləri) barədə məlumatı 650 xidməti (1 SMS üçün xidmət haqqı - 0,0236 AZN ƏDV daxil) vasitəsilə əldə etməsi mümkündür. Eyni zamanda, abunəçilər istənilən müştəri xidmətləri mərkəzinə müraciət etməklə, nömrələrinə dair hesab-fakturanın çap variantını kağız daşıyıcıda pulsuz olaraq əldə etmək imkanına malikdirlər.

Qeyd edək ki, yeni elektron xidməti ilə bağlı 25 yanvar 2020-ci il tarixindən etibarən "Azercell Telekom" tərəfindən kağız daşıyıcıda hesab-fakturaların abunəçilərin poçt ünvanına və faksla çatdırma xidməti ləğv ediləcək.

**Abunəçilər göstərilən dəyişikliklər, hesab-fakturaların elektron poçt ünvanına çatdırılması xidmətinin sifarişi və imtina qaydası barədə şirkətin rəsmi internet səhifəsindən (www.azercell.com), həmçinin, müştəri xidmətlərinə (müştəri xidmətləri mərkəzləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə edə bilər.**

**Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.**

## Elan

Şəki rayonu, Aşağı Göynük kənd sakini Hacıyev Veysəl Əhməd oğlunun adına verilmiş JN- 164G saylı torpaq şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

Məmmədov Həsənağa Səfər oğlunun adına, Bakı şəh, M.Sübhi küçəsi, dalan 13, ev 5 ünvanına verilmiş qeydiyyat vəsiqəsi (kupça) itdiyi üçün etibarsız sayılır.

Əliyeva Tamara Konstantinovnaya məxsus Binəqədi rayonu, Görədil bağlar sahəsində yerləşən bağ №256 a ünvanına, Bakı şəhər İcra Hakimiyyəti aparatının bağlar təsərrüfatının inkişafı və istismarı birliyi tərəfindən verilmiş №3 order itdiyi üçün etibarsız sayılır.

## "Nar" Qusarın Laza kəndini 4G şəbəkəsi ilə təmin etdi

**Azərbaycanın bütün regionlarını yüksək keyfiyyətli və sürətli internetlə təmin edən "Nar", ucqar kəndlərdə belə 4G şəbəkəsini genişləndirir.**

Mobil operator bu dəfə dəniz səviyyəsindən 1300 metr yüksəklikdə yerləşən Qusarın Laza kəndini 3G/4G şəbəkəsi ilə təmin edib. Qeyd edək ki, bu, Laza kəndində quraşdırılmış ilk 3G/4G baza stansiyasıdır. İndi Laza kəndində yaşayan sakinlər, eləcə də kəndə gələn turistlər "Nar"ın yüksək sürətli internetindən yararlana biləcəklər.

"Nar" interneti bütün ölkə əhalisi üçün əlçatan etmək məqsədilə Bakı və Abşeron yarımadası ilə yanaşı, regionlarda, şəhər və rayon mərkəzlərində də baza stansiyalarının sayını daim artırır. Bölgələrə xüsusi diqqəti ilə seçilən "Nar", hazırda 54 regionu 4G şəbəkəsi ilə təmin edib. 4G və 3G baza stansiyalarının sayını sürətlə artırmaqla mobil operator Azərbaycanın ən ucqar kəndlərini belə mobil rabitə xidmətlərilə təmin edir. Aparılan təkmilləşmə işləri nəticəsində 4G şəbəkəsi hazırda ölkə əhalisinin 92%-ni, ölkə ərazisinin isə 74,3%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 8600-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.

## "Azercell" yenidən jurnalistlər üçün ingilis dili kursları elan edir!

**Fəaliyyət illəri ərzində KİV nümayəndələrinin inkişafına, onların peşəkar bacarıqlarının artırılmasına və beynəlxalq əlaqələrinin qurulmasına, həmçinin, rəqəmsal ingilisdilli mənbələrdən sərbəst istifadəsinə yardımçı olmaq məqsədilə çoxsaylı layihə həyata keçirən ölkənin lider mobil operatoru "Azercell Telekom" jurnalistlər üçün növbəti ingilis dili kurslarını təşkil edir.**

2020-ci ilin əvvəlində start veriləcək kurslar çap, elektron və teleradio kütləvi informasiya vasitələrində çalışan aktiv peşəkarlar üçün açıqdır. Kurslarda iştirak etmək üçün jurnalistikada ən azı bir il iş təcrübəsinə malik olan şəxslər KİV-də dərc olunan 3 məqaləsini və jurnalist vəsiqəsini 15 yanvar 2020-ci il tarixinə qədər azercell.press@azmemo.info elektron ünvanı vasitəsilə şirkətə təqdim etməlidirlər. Dərslər ixtisaslaşmış ingilis dili müəllimləri tərəfindən əyani şəkildə həftədə 2 dəfə keçiriləcək. 6 ay davam edəcək dərslərdə media nümayəndələri qrammatika, danışıq, dinləmə, yazı qabiliyyəti üzrə ingilis dili biliklərini gücləndirmək imkanı qazanacaq.

Qeyd edək ki, "Azercell" 10 ildən artıq bir müddət ərzində jurnalistlər üçün dil kursları təşkil edir. İndiyədək yüzlərlə KİV nümayəndəsi ingilis dili üzrə ixtisaslaşmış kurslarda iştirak edib. Bundan əlavə, media sahəsində baş verən yenilik və trendlərlə yerli jurnalistləri tanış etmək, fərqli təcrübələrə bölüşmək, beynəlxalq jurnalistika məktəbi ilə tanışlıq və təcrübə mübadiləsi məqsədilə şirkət tərəfindən mütəmadi olaraq xaricdən dəvət olunmuş tanınmış təlimçilərin maraqlı mövzularda seminar və təlimləri təşkil olunur.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.





**Qoç** - Gün ərzində ünsiyyət, xoş söhbətlər, əyləncəyə can atsanız da, hisslərinizi cilovlayın. Düzünü deyin: ciddi iş rejimi ilə son dəfə nə zaman çalışıbsınız? Yox, fikirləşməyin ki, siz işdə hamıdan çox zəhmət çəkirsiniz, rəhbərlik isə bunu görmür.



**Buğa** - Bu gün ərzində evinizi bəzəmək, habelə əylənmək fikrinə düşə bilərsiniz. İşdən çıxandan sonra imkan varsa, nəqliyyatdan az istifadə edin, piyada gəzişin. Ailə üzvləri və qohumlarla münasibətlərdə problemlər yaranmayacaq.



**Əkizlər** - Tək çalışsanız, tezliklə yorulacaq, işdən bezəcək və əlinizdəki işi atacaqsınız. Dostlar və yaxınlarla birlikdə çalışsanız, iş şövqünüz itməyəcək, ətrafınızdakı insanlara da ruh verəcəksiniz.



**Xərçəng** - Bu gün çox çətin situasiya ilə qarşılaşacaqsınız. Yaranmış vəziyyətdən çıxış yollarını tapmaq üçün yaxşıca düşünün. Sizi ciddi düşüncələrdən və fikirlərdən ayırmağa çalışacaqlar.



**Şir** - Məntiqli, səbrli olun. Belə davranış sizi və dostlarınızı səhvlərdən qoruyar. Bu gün sizdən məsləhət, dəstək, mənəvi yardım istəyəcəklər. Lakin sevdiyiniz insan inadkarlığı ilə sizi narahat və nigaran qalmağa vadar edəcək.



**Qız** - Həmişə başqalarının qayğısına qalaraq yaxınlarınızın problemlərini həll etməyə çalışırsınızsa, bu gün özünüzü düşünün. Əvvəl başladığınız işləri qaydaya salmaq, gələcəklə bağlı prioritet və planlar barədə düşünmək vaxtıdır.



**Tərəzi** - Bu gün sizə kimsə mane ola bilməyəcək, qarşınıza qoyduğunuz məqsədlərə çatacaqsınız. Elə bir məsələ yoxdur ki, onu çözməyə səy göstərəndə çətinliklərlə qarşılaşasınız.



**Əqrəb** - Məqsədinizə çatmaq üçün bu gün hər şeyə hazırsınız. Lakin unutmayın ki, avantüralar və macaraların hamısı yaxşı bitmir. Macəra maraqlı olsa da, risk və təhlükələr az deyil. Aramla davranın, yüz ölçüb bir biçin.



**Oxatan** - Səhər saatlarında günə fəal başlayın, vaxtınızı boş keçirməyin. İşə və ya təhsil müəssisəsinə gecikməyin. İctimai nəqliyyatda gecikmələr yarana bilər. Buna görə də evdən bir qədər tez çıxın.



**Oğlaq** - Köhnə işlərin başa çatdırılması və nəticələrin gözdən keçirilməsi üçün əlverişli gündür. Təkliflər alacaqsınız. Amma ehtiyatlı olun, imkanlarınızla potensial tərəfdaşlarınızın gücünü olduğundan artıq dəyərləndirməyin.



**Dolça** - Bu gün sizdən ünsiyyətlərdə diqqət, iş yerində və təhsil müəssisəsində təmkin, söhbətlərdə konkretlik tələb olunur. Yaxınlarınız və sizə əziz olan insanlara əsla yalan danışmayın.



**Balıqlar** - Bu gün sizi aldatmaq və ya yalanlar toruna salmaq çətin olacaq. Müstəqil olun, enerjili davranın, potensialınızı reallaşdırın. Hədəfi konkret müəyyənləşdirin və ona doğru irəliləyin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## İnsan beyninə yerləşdirilmiş mikroçip yaddaşı yaxşılaşdırdı

**Dünyada bir çox universitet və elm adamı, insan beyni üzərində çoxlu sayda araşdırma aparır.**

Texnologiyanı və insan beynini birləşdirməyi məqsəd qoyan bu araşdırmaların məqsədi isə, müxtəlif xəstəlikləri müalicə etməkdir. "Deyerler.org" bildirir ki, İngiltərənin Bat Universitetində aparılan araşdırmada beynə taxılan mikroçiplər, Parkinson kimi xəstəliklərin müalicəsində ümid işığı yaradır və insan yaddaşını da 15% ilə 20% nisbətində yaxşılaşdırmağı bacardı. Elm adamlarının bu araşdırmalar, Parkinson və Alzheimerlə yanaşı depressiya, asılılıq, autizm, epilepsiya və danışma pozuntuları kimi gündəlik həyatı məhdudlaşdıran xəstəliklərə də həll ola biləcəyi ifadə edilir. Bundan əlavə, keçən həftələrdə "Elon Maskın" texnologiya şirkəti Neuralink , birbaşa beynə taxılan bir implant ilə sinir hüceyrələrinə elektrik siqnalları göndərərək pozulan funksiyaları yaxşılaşdırmağı məqsəd qoyduqlarını ifadə etmişdi. Bütün bu inkişaflarla, insanların beyin qabiliyyətlərinin və həyat keyfiyyətinin artırılması məqsəd qoyulur.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa).

«BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.